# POLİQLOT

№ 4(258) oktyabr-noyabr 2024 * Təsisçi: Azərbaycan Dillər Universiteti * www.adu.edu.az


# COP29 - Azərbaycanın yaşıl liderliyində yeni səhifə


**Qəhrəmanını tanı** ☞ səh. 4

**AZƏRBAYCANA XARİCDƏN BAXIŞ** ☞ səh. 10

**ADU-ya ən yüksək balla qəbul olan tələbələrimiz** ☞ səh. 11

**ADU-nun muzeyi keçmişi yaşadan tarix** ☞ səh. 15


## Azərbaycanın iqlim siyasətində liderlik rolu

### Millət vəkili Könül Nurullayeva ilə müsahibə



*Millət vəkili Könül Nurullayeva: "Azərbaycanın yekdilliklə COP29-un ev sahibi kimi dəstəklənməsi milli, regional və qlobal miqyasda iqlim dəyişikliyi probleminin həllində ölkəmizin liderliyinin və səylərinin qəbul edildiyini göstərir. COP29-a ev sahibliyi etməklə Azərbaycan iqlim dəyişikliyi ilə bağlı problemlərin həllində qlobal həmrəyliyi daha çox təşviq etməyə sadiq olduğunu göstərir".*

☞ səh. 8-9




Yaxın günlərdə Azərbaycanda çox möhtəşəm beynəlxalq tədbir - BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 keçiriləcək. Azərbaycan bu mühüm qlobal konfransa ev sahibliyi etməklə ekoloji gündəliyə sadiqliyini bir daha nümayiş etdirəcək, beynəlxalq arenada fəal və nüfuzlu rolunu daha da gücləndirəcək.

COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı dünya ölkələri tərəfindən qəbul edilmiş qərar beynəlxalq aləmdə ölkəmizə olan dərin etimadın və hörmətin sübutudur. Bu, Azərbaycanın qlobal problemlərin həllində məsuliyyətli və etibarlı tərəfdaş statusunu bir daha təsdiqləyir.

Ölkəmizin dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a ev sahibliyi etməsi Azərbaycanın Respublikasının növbəti təntənəli qələbəsidir. Bu, ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi və Təhlükəsizlik Şurasına üzvlüyündən sonra xarici siyasətimizin ən böyük uğurudur. Eyni zamanda, son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə tutarlı cavabdır.

Qeyd edək ki, Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulub. Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarını 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarını 40 faiz azaldılmasından ibarətdir.

Azərbaycan Respublikasının Prezidenti ölkəmizin işğaldan azad edilmiş torpaqlarını "Yaşıl enerji" zonası elan edib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur.

Azərbaycanda iqlim dəyişikliyi artıq yalnız ekoloji deyil, həm də sosial və iqtisadi siyasətlərin mərkəzində duran bir məsələdir. Son illərdə dünyada havanın temperaturunun artması, azalan su ehtiyatları, torpaq eroziyası və kəskin quraqlıq epizodları kimi problemlər iqlim dəyişikliyinin təsirini konkret faktlarla ortaya qoyur. Azərbaycan COP29 konfransı çərçivəsində bu məsələlərə adaptasiya siyasətini gücləndirməyi və əhalinin iqlim dəyişikliyinə qarşı dayanıqlığını artırmaq üçün xüsusi strategiyalar tətbiq etməyi hədəfləyib.

...Hazırda bütün ölkə ərazisində COP29-un yüksək səviyyədə təşkili üçün əhəmiyyətli tədbirlər davam etdirilir. COP29-a hazırlıq çərçivəsində Azərbaycan Dillər Universiteti də fəal iştirak edərək layiqli töhfəsini verir: universitetdə mütəmadi olaraq maarifləndirici, tədqiqat və təşviqat xarakterli tədbirlər düzənlənir, ərazilərin tullantılardan təmizlənməsi, ağacəkmə kampaniyaları və s. tədbirlər həyata keçirilir.

# Birləşmiş Ərəb Əmirliklərinin səfiri ADU-nun qonağı olub



Oktyabrın 15-də Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Əl Bluşi Azərbaycan Dillər Universitetinin qonağı olub.

Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla səfiri səmimiyyətlə salamlayıb, onu universitetdə görməkdən məmnun olduğunu bildirib. Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında ikitərəfli əlaqələrin əhəmiyyətini vurğulayan rektor bu ilin iyun ayında ADU-da açılan Şeyx Zayed adına Ərəb dili auditoriyasının ölkələrimiz arasındakı əlaqələrin inkişafına təkan verdiyini bildirib. Qeyd olunub ki, bu mərkəz Birləşmiş Ərəb Əmirliklərinin mədəniyyətini, tarixini daha dərindən öyrənmək üçün əlverişli imkanlar yaradır. Mərkəzin potensialından istifadə edən gənclər ərəb mənəvi dünyasına daha yaxın olacaq, ərəb mədəniyyətinin özəllikləri ilə yaxından tanış olacaqlar.

Səmimi qarşılanmaya və xoş sözlərə görə minnətdarlığını ifadə edən Məhəmməd Əl Bluşi bildirib ki, hazırda ölkələrimiz arasında iqtisadi, siyasi, mədəni əlaqələr yüksələn xətt üzrə inkişaf etməkdədir. ADU-da açılan Şeyx Zayed adına Ərəb dili auditoriyasının açılışında göstərdiyi dəstəyə görə ADU-nun rektoru Kamal Abdullaya dərin təşəkkürünü bildirən səfir bu qurumun fəaliyyətinin xalqlarımız arasında əlaqələrin daha da möhkəmlənməsində əhəmiyyətli rol oynayacağına əminliyini ifadə edib. Mərkəzin açılışı iki ölkə arasındakı münasibətlərin genişləndirilməsinin bariz nümunəsidir. Şeyx Zayed adına Ərəb dili auditoriyası ölkələrimiz arasında mədəniyyət, təhsil və digər sahələr üzrə əlaqələrin davamlılığında möhtəşəm körpü olacaq. Gələcəkdə mərkəzin fəaliyyət dairəsinin daha da genişləndirilməsi nəzərdə tutulur. Bu mərkəz ərəb dilini öyrənmək və Birləşmiş Ərəb Əmirlikləri haqqında məlumat əldə etmək istəyənlərin əsas maraq yerinə çevriləcək.

Gələcək elmi əməkdaşlıq, müəllim və tələbə mübadiləsi müzakirələri ilə davam edən görüşdən sonra Məhəmməd Əl Bluşi "Səfir saatı" çərçivəsində Şeyx Zayed adına Ərəb dili auditoriyasında tələbələrlə görüşüb, "Birləşmiş Ərəb Əmirliklərində təhsil" adlı mühazirə oxuyub. Sonra tələbələrin mövzu ətrafında marağına səbəb olan sualları cavablandıran səfir Birləşmiş Ərəb Əmirliklərində təhsil almaq imkanları barədə geniş məlumat verib. Tələbələr ərəb dilində şeir səsləndiriblər.

Görüş Birləşmiş Ərəb Əmirliklərinin universitetləri haqqında videoçarxın nümayişi ilə yekunlaşıb.

# Kolumbiyanın müvəqqəti işlər vəkili ilə görüş



Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla Kolumbiyanın Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili, konsul Andres Felipe Giraldo Lopez ilə görüşüb.

Konsulu rəhbərlik etdiyi təhsil ocağında görməkdən məmnun olduğunu deyən rektor əlaqələrin bundan sonra da ən yüksək səviyyədə inkişaf edəcəyinə ümidvar olduğunu bildirib. "Səfir saatı" layihəsi haqqında danışan akademik Kamal Abdulla qonağı bu layihədə iştirak etməyə dəvət edib. Qeyd olunub ki, layihədə səfirlər həm öz ölkələri, həm də Azərbaycan haqqında mühazirələr oxuyur, fikir mübadiləsi aparırlar.

Dəvətə görə təşəkkürünü bildirən konsul Kolumbiyanın Azərbaycandakı səfirliyi ilə ADU arasındakı əlaqələrin yüksək inkişafından məmnun olduğunu bildirib, İspan dilinin inkişafı istiqamətində atılan addımları yüksək qiymətləndirib.

Görüşdə Kolumbiya ədəbiyyatını tanıtmaq məqsədi ilə Azərbaycan Dillər Universitetində ədəbi-bədii tədbirin keçirilməsi ilə bağlı müzakirə aparılıb. Qeyd olunub ki, Kolumbiyanın tanınmış yazıçıları Laura Restrepo, Martin Gomez, Carlos Eduardo Betancourt ilə görüş tələbə-müəllim heyətində bu ölkənin çağdaş ədəbiyyatı haqqında aydın təsəvvür formalaşdıracaq.

# QS reytinq təşkilatının regional direktoru ADU-da

Azərbaycan Dillər Universitetində dünyanın ən nüfuzlu reytinq təşkilatı olan "Quacquarelli Symonds"un (QS) regional direktoru Sergey Xristolyubovla görüş keçirilib.

ADU-nun rektoru, akademik Kamal Abdulla qonağı salamlayıb, onu universitetdə görməkdən məmnun olduğunu bildirib. Rektor ADU-da təhsilin keyfiyyətinin yüksəldilməsi, dünya standartlarına uyğunlaşdırılması, rəqabət qabiliyyətliliyinin artırılması, qarşıda duran hədəflər, universitetin son illərdə beynəlxalq arenada tanıdılması ADU-da tədris olunan beynəlxalq dillərə həm yerli, həm də xarici tələbələr böyük maraq göstərir.

QS regional direktoru Sergey Xristolubov dünyada ali təhsil xidmətləri sahəsində tanınan QS agentliyinin fəaliyyəti, eləcə də beynəlxalq səviyyəli keyfiyyət nişanı olan "QS Stars" haqqında məlumat verib. QS reytinqlərində Azərbaycan universitetlərinin də potensialının təhlil olunduğunu qeyd edən regional direktor onların müxtəlif parametrlər üzrə irəlilədiyini, eləcə də ADU-



istiqamətində görülən işlərdən və perspektivlərdən danışıb.

Qeyd olunub ki, beynəlxalq əlaqələrin qurulmasında və yeni elmi tərəfdaşlığın inkişaf etdirilməsində bir sıra layihələr həyata keçirilir.

nun son dövrlər bu yöndəki uğurlarını yüksək qiymətləndirib, bunun davamlı olacağına inandığını söyləyib.

Görüş elmi əməkdaşlıq ətrafında aparılan müzakirələrlə davam edib.

# Venesuela şairi ilə görüş




Oktyabrın 4-də Venesuelanın ölkəmizdəki səfiri Kristofer Martinez və şair Ana Maria Oveido Azərbaycan Dillər Universitetinin (ADU) qonağı olub.

ADU-nun rektoru, akademik Kamal Abdulla ilə görüşdə bədii sözün xalqları bir-birinə yaxından tanıdan, dostluq münasibətlərini daha da sıxlaşdıran ən təsirli vasitə olduğu bildirib. Qeyd olunub ki, ADU-nun tələbələri ispan dilini, ispandilli ölkələrin mədəniyyətini və tarixini böyük həvəs və maraqla öyrənirlər.

Venesuelalı şair Ana Maria Oveido minnətdarlığını bildirərək, Azərbaycan-Venesuela ədəbi əlaqələrinin genişləndirilməsi, Azərbaycan poeziyasının Venesuelada tanıdılması ilə bağlı fikir və təkliflərini dilə gətirib. O, dilimizə tərcümə olunmuş məşhur "Söyüd krallığı" kitabını ADU-nun kitabxanasına hədiyyə edib.

Daha sonra Ana Maria Oveido tələbələrlə görüşərək onlarla səmimi söhbət aparıb. Tədbir iştirakçılarının suallarını cavablandıran şair, eyni zamanda şeirlərindən nümunələr səsləndirib.

# ADU və Təhsilin İnkişafı Fondu əməkdaşlıq müqaviləsi imzalayıb

Azərbaycan Dillər Universiteti (ADU) ilə Təhsilin İnkişafı Fondu (TİF) arasında “TələbəPlus” layihəsi çərçivəsində əməkdaşlıq müqaviləsi imzalanıb. Müqavilə ADU-nun rektoru, akademik Kamal Abdulla və TİF-in İdarə Heyətinin sədri Elnur Nəsibov tərəfindən imzalanıb.

İmzalanma mərasimində çıxış edən Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla son illər universitetin əldə etdiyi yüksək nailiyyətlərdən, bir çox ölkələrin ali təhsil müəssisələri arasında uğurlu əməkdaşlıq əlaqələrindən danışıb. Yeni təhsil ilinin uğurla başladığını vurğulayan rektor qeyd edib ki, beynəlxalq reytinq cədvəllərində dünyanın



ən nüfuzlu universitetləri sırasına daxil olan Azərbaycan Dillər Universitetinin 2024/2025-ci tədris ilində bakalavriat pilləsi üzrə qəbul planı 99,09% dolub. Yeni tədris ilində Azərbaycan Dillər Universitetinə qəbul nəticələrinə əsasən 63 tələbə 600 baldan yüksək, dörd tələbə isə 650-dən yüksək bal toplayıb.

Tədbirdə çıxış edən Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov bildirib ki, Fondun əsas missiyası təhsilin dayanıqlı inkişafına nail olmaq, dövlətin təhsil siyasətinin təmin edilməsində yaxından iştirak etməkdir. Təhsilin İnkişafı Fondunun həyata keçirdiyi “TələbəPlus” layihəsi tələbələrin eyni güzəşt və endirimlərdən faydalanmalarını təmin etmək, onların sosial həyatına dəstək göstərmək məqsədi daşıyır.

Elnur Nəsibov qeyd edib ki, “TələbəPlus” layihəsi çərçivəsində müxtəlif alış-veriş və iaşə obyektlərində tələbələrin güzəştlər əldə etməsi üçün Təhsilin İnkişafı Fondunun öz tərəfdaşları ilə birlikdə 250-dən çox şirkətlə razılaşma əldə edilib. Bundan başqa, Mədəniyyət Nazirliyi, Dövlət Turizm Agentliyi ilə müəyyən istiqamətlərdə tələbələr üçün xüsusi güzəştlər nəzərdə tutulur. Hazırda ictimai nəqliyyatda da güzəştlərin tətbiq edilməsi ilə bağlı müzakirələr aparılır. “TələbəPlus” layihəsi çərçivəsində ilkin olaraq 150 min tələbə kartı kartının istifadəyə verilməsi planlaşdırılır. Tələbələrin sosial və akademik həyatında yenilik yaratmağa yönələn “TələbəPlus” kartlarının oktyabr ayının sonundan ilkin istifadəyə verilməsi nəzərdə tutulur. Gələcəkdə “TələbəPlus” kartının ali təhsil müəssisələri ilə yanaşı, kollec və peşə təhsili müəssisələrində oxuyan tələbələrə də mərhələli şəkildə verilməsi nəzərdə tutulur.

# ÇXR-in nümayəndə heyəti ADU-da



Çin Xalq Respublikasının (ÇXR) Dil Təhsili və Əməkdaşlıq Mərkəzinin nümayəndə heyəti Azərbaycan Dillər Universitetinin (ADU) qonağı olub. Görüşdə ADU-nun rektoru, akademik Kamal Abdulla və universitetin digər rəhbər şəxsləri iştirak ediblər.

Akademik Kamal Abdulla qonaqları səmimi qarşılayaraq, onları universitetdə görməkdən məmnun olduğunu bildirib. Azərbaycan Dillər Universitetinin dünyanın bir çox xarici universitetləri ilə əlaqələrinin uğurla inkişaf etdiyini vurğulayan rektor bugünkü görüşün daha geniş əməkdaşlıq üçün böyük imkanlar açacağına, iki dövlət arasında mövcud münasibətlərin inkişafına müsbət təkan verəcəyinə əmin olduğunu bildirib.

Azərbaycan Dillər Universitetinin rektoru qeyd edib ki, ADU-nun nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutu iki ölkə arasında təhsil sahəsində əməkdaşlığın gücləndirilməsinə, Çin dilinin tədrisinin inkişafı üçün xalqlarımız arasında qarşılıqlı münasibətlərin artırılmasına xidmət edir. Konfutsi İnstitutunun fəaliyyəti Çin dilinin öyrənilməsinə kömək etməklə yanaşı, Çin mədəniyyətinə marağı stimullaşdırır. Eyni zamanda, Çin Xalq Respublikasının Xudzou Dövlət Universitetində Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin uğurlu fəaliyyəti Azərbaycan-Çin münasibətlərinin müxtəlif müstəvilərdə daha dərin inkişafına kömək edir. Mərkəz müxtəlif təqdimatlar, dəyirmi masalar, tədbirlər keçirməklə Azərbaycan dilini, mədəniyyətini və tarixini Çin Xalq Respublikasında təbliğ edir.

Səmimi qarşılanmaya və qonaqpərvərliyə görə ADU rəhbərliyinə təşəkkürünü bildirən Çin Xalq Respublikasının Dil Təhsili və Əməkdaşlıq Mərkəzinin Baş direktorunun müavini Yu Tianqi univesitetdə olmaqdan məmnunluğunu ifadə edib. ADU ilə əməkdaşlığı yüksək qiymətləndirən qonaq iki ölkə arasında elmi əməkdaşlığın inkişafının perspektivlərini müzakirə edib. Qeyd olunub ki, Azərbaycan və Çin arasında bütün sahələrdə olduğu kimi, elm və təhsil sahəsində də əməkdaşlıq yüksələn xəttlə inkişaf etməkdədir. Bu baxımdan, Azərbaycan Dillər Universiteti ilə olan sıx təmaslar ölkələrimiz arasında münasibətlərin inkişafına mühüm töhfə verir.

# Kamal Abdulla ən yüksək bal toplamış tələbələrlə səhər yeməyində



Azərbaycan Dillər Universitetinə 2024/2025-ci tədris ilində ən yüksək balla qəbul olan tələbələrlə görüş keçirilib.

ADU-nun rektoru, akademik Kamal Abdulla tələbələri salamlayıb, onları qəbul imtahanlarında göstərdikləri yüksək nəticələrə görə təbrik edib.

Universitetdə həyata keçirilən layihələrdən danışan rektor bildirib ki, ADU-da tələbələrin bilik və bacarıqlarının artırılması üçün hər cür zəruri imkanlar mövcuddur və yeni tədris metodlarının öyrənilməsi, tətbiqi istiqamətində beynəlxalq təcrübə öyrənilməkdədir. Universitetdə həm müəllimlər, həm də tələbələr üçün elmi araşdırmaların aparılması üçün münbit şərait var.

Görüşdə birinci kurs tələbələrinin şəxsi kitabxanasının formalaşması və dünyagörüşünün artırılması məqsədilə təşkil olunan pulsuz kitab layihəsindən bəhs olunub, tələbələrin idarəetmə bacarıqlarının formalaşması üçün hər il keçirilən “Bir günlük xəlifə” layihəsinin əhəmiyyətindən danışılıb.

Akademik Kamal Abdulla tələbələri ictimai, elmi, mədəni mühitdə fəal olmağa, öz istedadları və savadları ilə cəmiyyətə faydalı olmağa çağırıb, bədii ədəbiyyata maraq göstərməyin, incəsənəti dərindən bilməyin vacibliyini vurğulayıb.

Sonda ən yüksək nəticə göstərən tələbələrə hədiyyələr təqdim olunub.

# 600-dən yüksək bal toplamış tələbələrlə görüş



2024/2025-ci tədris ilində Azərbaycan Dillər Universitetinə qəbul nəticələrinə əsasən 600-dən yüksək bal toplamış tələbələrlə görüş keçirilib.

Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla ali məktəbə qəbul olmuş tələbələri təbrik edib, onların seçimlərinin gələcək həyatlarının qurulması üçün doğru istiqamət verəcəyinə, universitetdə oxuduqları müddətdə yiyələnəcəkləri bilik və bacarıqların ölkəmizin ləyaqətli vətəndaşları olmaları üçün imkan yaradacağına ümidvar olduğunu bildirib.

Tələbələri yaxşı təhsil almaqla yanaşı, elmi-mədəni, ictimai işlərdə də fəal olmağa, öz istedadları və savadları ilə cəmiyyətə faydalı vətəndaş olmağa çağıran rektor son illər universitetin qazandığı yüksək nailiyyətlərdən, ildən-ilə genişlənən beynəlxalq əlaqələrindən, ali məktəbdə tələbələr üçün yaradılan əlverişli şəraitdən, həyata keçirilən mühüm layihələrdən, dil və mədəniyyət mərkəzlərinin fəaliyyətindən danışıb. Tələbələrin idarəetmə bacarıqlarının formalaşması üçün hər il ADU-da keçirilən “Bir günlük xəlifə” layihəsinin əhəmiyyətini vurğulayan akademik Kamal Abdulla qeyd edib ki, birinci kurs tələbələrinin şəxsi kitabxanasının formalaşması məqsədilə universitetdə pulsuz kitab layihəsi həyata keçirilir.

Sonra ADU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Misgər Məmmədov, Filologiya fakültəsinin dekanı, professor Həmidə Əliyeva, Təhsil 1 fakültəsinin dekanı, professor Fikrət Cahangirov və başqaları çıxış edərək universitetin müxtəlif istiqamətli imkanları haqqında geniş məlumat verib, tələbələrə uğurlar arzulayıblar.

Görüşdə 2024/2025-ci tədris ilində Azərbaycan Dillər Universitetinə qəbul nəticələrinə əsasən 650-dən yüksək bal toplamış dörd tələbəyə - Ayşə Hüseynova, Xalidə Əliyeva, Şahzadə Vəliyeva və Dünya Əsədovaya hədiyyələr təqdim olunub. Tədbirin əhəmiyyətindən söz açan tələbələr və onların valideynləri çıxış edərək xoş təəssüratlarını bölüşüb, səmimi qarşılanmaya görə ADU rəhbərliyinə təşəkkürlərini bildiriblər.

Görüş tələbələri maraqlandıran suallarla davam edib.

# Millət vəkili ADU-nun qonağı olub

Azərbaycan Dillər Universitetində Milli Məclisin deputatı Mehriban Vəliyeva ilə “COP29 və müasir gənclik” mövzusunda görüş keçirilib.

Keçirilən görüş Beynəlxalq jurnalistika şöbəsinin təşkilatçılığı ilə jurnalistika ixtisasının tələbələri ilə baş tutub.

Açılış nitqi ilə çıxış edən Beynəlxalq jurnalistika şöbəsinin müdiri, baş müəllim Nərgiz Çərkəzqızı görüşün əhəmiyyətindən danışıb. Deputat Mehriban Vəliyeva Azərbaycan dövlətinin gənclərə olan diqqəti, Cənab Prezidentin gənclər siyasəti, ölkəmizin inkişafında gənclərin rolu, müasir zamanda gənclərin görməli olduğu işlər, təhsil və digər mühüm əhəmiyyətli sahələrdən söz açıb.

Həmçinin milli ideallar və jurnalistikanın cəmiyyətdəki rolu haqqında məsələlərə də toxunub.

Görüş ADU-nun rektor məsləhətçisi Anar Osmanlının çıxışı ilə yekunlaşıb.

# Qəhrəmanını tanı



Oktyabrın 28-də Azərbaycan Dillər Universitetində (ADU) Azərbaycan Respublikası Gənclər Fondunun dəstəyi, "Böyük Qayıdış" Gənclər Təşkilatının, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının, Gənclərin İnkişaf və Karyera Mərkəzinin, ADU-nun Tələbələrlə iş və tədbirlərin təşkili şöbəsinin birgə təşkilatçılığı ilə "Zəfər Günü"nə həsr olunmuş "Qəhrəmanını tanı" layihəsinin növbəti tədbiri keçirilib.

Vətən müharibəsində iştirak etmiş qəhrəman qazilərimizi cəmiyyətdə, xüsusilə gənclər arasında tanıtmaq məqsədilə həyata keçirilən tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, dövlətimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Azərbaycan Dillər Universitetinin Həmkarlar İttifaqı Komitəsinin sədri Misgər Məmmədov bu cür görüşlərin gənc nəsil üçün əhəmiyyətini vurğulayaraq bildirib ki, Vətən müharibəsi xalqımızın gücünü, iradəsini, mübarizə ruhunu əks etdirən bir dastandır və bu dastanı yazan qəhrəmanlarımızla üz-üzə gəlmək hər bir tələbə üçün unudulmaz bir təcrübədir. Vətən sevgisi bizim yolumuz, Vətən uğrunda döyüşənlər isə ruhumuzun əbədi qəhrəmanlarıdır!

Tədbirin təşkilində göstərdikləri köməkliyə görə ADU-nun rəhbərliyinə dərin minnətdarlığını bildirən Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının əməkdaşı Aqil Quliyev vurğulayıb ki, bu cür görüşlər yalnız Azərbaycanın tarixi qələbəsinin dərin mənasını anlamaq üçün deyil, həm də qəhrəmanlarımızı gənc nəslə daha yaxından tanıtmaq və onların mirasını yaşatmaq üçün mühüm rol oynayır. Belə görüşlər bir daha sübut edir ki, Vətən sevgisi ən böyük qüvvədir, Vətən uğrunda canını fəda edən qəhrəmanlar isə xalqın qəlbində əbədi yaşayacaqlar.

Gənclərin İnkişaf və Karyera Mərkəzinin əməkdaşı Mətanət Xəlilova çıxışında bildirib ki, bugünkü görüş, sadəcə, bir tədbir deyil, eyni zamanda, Azərbaycanın şanlı tarixini dərk etməyin yoludur. Vətən müharibəsi iştirakçıları ilə tələbələrin görüşü gənc nəsildə vətənpərvərlik ruhunu gücləndirmək və milli birliyi daha da möhkəmləndirmək məqsədi daşıyır. Burada iştirak edən qəhrəman qazilərimiz bizə azadlığın əsl mənasını öyrədir.

Sonra söz alan müharibə veteranları keçdikləri şərəfli döyüş yollarından danışıblar. "Böyük Qayıdış" Gənclər Təşkilatının sədr müavini, Aprel döyüşləri qazisi, Xüsusi Təyinatlı Qüvvələrin ehtiyatda olan baş leytenantı Əhliyyət Mehdiyev bildirib ki, müharibə vaxtı irəli atdığımız hər bir addımımızda arxamızda duran xalqımızın sevgisi və dəstəyi bizə güc verirdi. Hər dəfə önə irəlilədikdə yalnız bir məqsədimiz vardı - torpaqlarımızı azad etmək! Döyüşdə heç bir əsgər özünü tək hiss etmirdi, çünki biz bir yumruq kimi birləşmişdik. Bu, yalnız bir döyüş deyil, həm də Vətənə olan sonsuz məhəbbətin təzahürü idi. Bütün xalqın dəstəyi arxamızdaydı və bu birlik hissi bizə hər şeydən güclü idi.

Daha sonra tələbələrin ifasında "Azərbaycan" kompozisiyası dinlənilib.

# Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir



Oktyabrın 18-də Azərbaycan Dillər Universitetində Tələbələrlə iş və tədbirlərin təşkili şöbəsinin təçkilatçılığı ilə 18 oktyabr - Müstəqilliyin Bərpası Günü münasibətilə "Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir" adlı tədbir keçirilib. Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra Şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirin moderatoru dosent Namiq Əsədov çıxışında Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsinin 33-cü ili olmasını və həmçinin Azərbaycan üçün həm siyasi, həm də mənəvi dəyəri olan Xudafərin körpüsünün və ətraf ərazilərin erməni işğalından azad edilməsinin 4-cü ildönümü olduğunu qeyd edib.

Tədbirdə 18 Oktyabr tarixinin əhəmiyyətindən danışılaraq Qafqazşünaslıq və Azərbaycan tarixi kafedrasının dosenti Qorxmaz Mustafayev "Dövlət müstəqilliyinin əldə edilməsi və Azərbaycançılıq ideologiyasının formalaşdırılması", Azərbaycan dilçiliyi kafedrasının baş müəllimi Aynur Sadıqova "Əbədi zəfərə qovuşan yol", İngilis-fransız fakültəsinin 2-ci kurs tələbəsi Səkinə Yusubova "Ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsində Heydər Əliyevin rolu" mövzularında çıxış ediblər.

Tədbirdə Müstəqilliyin Bərpası Günü ilə bağlı videoçarx nümayiş olunub.

Tədbirin bədii hissəsində tələbələr - BMR 1-ci kurs tələbəsi Ruqiyyə Nəsirova, Filologiya fakültəsinin 1-ci kurs tələbəsi Sevinc Eyyubzadə Xalq şairi Zəlimxan Yaqubun "Azərbaycan oxusun" şeirini səsləndiriblər.

# Türkiyə Cümhuriyyətinin 101 illiyi

*dəyirmi masa*

Azərbaycan Dillər Universitetində (ADU) Türk Dünyası Araşdırmaları Mərkəzi və Tələbələrlə iş və tədbirlərin təşkili şöbəsinin birgə təşkilatçılığı ilə Türkiyə Cümhuriyyətinin 101 illiyinə həsr olunmuş dəyirmi masa keçirilib.

Türk Dünyası Araşdırmaları Mərkəzinin müdiri Cəlal İbrahimlinin moderatorluğu ilə keçən tədbirdə çıxış edən Yunus Əmrə İnstitutunun direktoru Selçuk Karakılıç Azərbaycan - Türkiyə mədəni əlaqələrindən danışıb.

Azərbaycan ədəbiyyatı kafedrasının müdiri akademik Muxtar İmanov "Türk dilində əlifba məsələsi" və "M.K.Atatürkün Türkiyə Cümhuriyyətinə gətirdiyi milli yeniliklər" haqqında çıxış edib.

Qafqazşünaslıq və Azərbaycan tarixi kafedrasının dosentləri Namiq Kərimovun "Sevr, Lozan və Möntrö anlaşmaları" və Qorxmaz Mustafayevin "Türkiyənin mədəni-iqtisadi əlaqələri" mövzularında məruzələri dinlənilib.

Türkiyə Cümhuriyyətinin 101 illiyi ilə bağlı Azərbaycan Dillər Universiteti Türk Dünyası Araşdırmaları Mərkəzi tərəfindən tərcümə edilmiş Akil Aslanın "Atatürk deyir ki" kitabı dəyirmi masa iştirakçılarına təqdim olunub.

Tədbir tələbələrin ifasında Türkiyə haqqında kompozisiya ilə yekunlaşıb.



# Tağıyev irsinin bərpası

Azərbaycan Dillər Universitetində "Aydınlığa doğru" milli-mənəvi dəyərlərin qorunması və "Damla" aztəminatlı ailələrə qayğı İB-nin birgə həyata keçirdiyi "Tağıyev irsinin bərpası, inkişafı və gənclər arasında təbliği" adlı layihə həyata keçirilib.

Tədbiri giriş sözü ilə açan universitetin Regionşünaslıq kafedrasının müdiri Sevdagül Əliyeva layihənin əhəmiyyətindən danışıb. Tədbirin moderatoru, telejurnalist Lalə Əliyeva öncə tədbirin məqsədi, məramı haqqında məlumat verib, sonra qonaqları təqdim edib.

Tədbirdə Hacı Zeynalabdin Tağıyevin həyat və fəaliyyətinə həsr edilmiş videoçarx izlənilib.

Görüşdə tarix elmləri doktoru Fərhad Cabbarov H.Z.Tağıyevin həyatı, fəaliyyəti barədə söz açaraq, maarifçilik və xeyriyyəçiliyə göstərdiyi böyük xidmətindən danışıb, onun iqtisadi müstəmləkəçiliyə qarşı mübarizə apardığını vurğulayıb.

Tədbirdə İslam bankçılığı üzrə beynəlxalq ekspert Anar Yusufzadə "Tağıyevin kapitalı el yolunda xərcləndikcə artır və bərəkətlənirdi, ancaq onun ən böyük qazancı xalq sevgisi idi" mövzusu ətrafında çıxış edib.

Anar Yusufzadə Tağıyevin örnək həyatından misallar çəkərək, onun bir dövlətin görəcəyi qədər iş gördüyündən, özü kimi ailəsinin də bu mənada fədakarlığından söhbət açıb.

Azərbaycan İlahiyyat İnstitunun ilahiyyat fakültəsinin dekanı, dosent Elnurə Əzizova H.Z.Tağıyevin həyatı timsalında dinə sağlam münasibətdən, dinin tək ibadət yox, həm də gözəl əməl sahibi olmağı öyrətdiyini nümunələrlə tələbələrə çatdırıb.

Daha sonra tələbələrin sualları qonaqlar tərəfindən cavablandırılıb.

Tədbir tələbə gənclərin dünya görüşündə xeyriyyəçilik anlayışının yaranması, gələcək həyatlarında tətbiq etmək baxımından faydalı olduğu üçün universitetdə layihənin təkrar keçirilməsi təklif edilib.

# Azərbaycanda yaşayan azsaylı xalqların etnoqrafik özəllikləri

*dəyirmi masa*

Azərbaycan Dillər Universitetində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, ADU-nun Regionşünaslıq kafedrası, Multikulturalizm Mərkəzi və "Azərbaycanşünaslıq" Elmi Mərkəzinin təşkilatçılığı ilə "Azərbaycanda yaşayan azsaylı xalqların etnoqrafik özəllikləri" adlı dəyirmi masa keçirilib.



Tədbiri giriş sözü ilə açan ADU-nun Multikulturalizm Mərkəzinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Loğman Rəşidzadə bildirib ki, bu gün Azərbaycanda yaşayan milli azlıq və etnik qrupların mədəniyyəti ölkə mədəniyyətinin tərkib hissəsi kimi qorunaraq inkişaf edir. Hazırda Azərbaycan dünyanın ən sabit, multikulturalizm ənənələrini yaşadan, onu qoruyan ölkələrdəndir. Azərbaycan dövləti əhalisinin çoxmillətli olmasını özünün tarixi nailiyyəti hesab edir və milli-mədəni rəngarəngliyi cəmiyyətin zənginliyinə xidmət edən amil kimi dəyərləndirir.

Sonra Azərbaycanda yaşayan azsaylı xalqların etnoqrafik özəlliklərindən bəhs edən videoçarx nümayiş olunub.

Dəyirmi masada məruzə ilə çıxış edən Regionşünaslıq kafedrasının müdiri, professor Sevdagül Əliyeva Azərbaycanda yaşayan milli azlıqların adət-ənənələri haqqında geniş məlumat verib. Bildirilib ki, çoxmədəniyyətli, çoxmillətli diyar olan Azərbaycanda tarixən müxtəlif xalqlar, millətlər azad, firavan yaşamış, özlərinə hər zaman tolerant münasibət görmüş, öz etnik-mədəni xüsusiyyətlərini heç bir təqibə məruz qalmadan inkişaf etdirə bilmişlər. Ölkəmizdə milli azlıqların tarixi, mədəni adət-ənənələri bu gün də qoruyub saxlamaqdadırlar.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Analitik şöbəsinin müdiri Rəşad İlyasov Ümummilli lider Heydər Əliyevin Azərbaycanda milli azlıqların hüquqlarının qorunması istiqamətində həyata keçirdiyi siyasətin bu gün Ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. Qeyd olunub ki, Azərbaycan müxtəlif xalqların mehriban şəraitdə yaşadığı multikultural ölkədir. Ölkəmizdə etnik qruplar bütün bölgələrdə kompakt şəkildə yaşayır, dövlətin qayğı və himayəsini daim öz üzərlərində hiss edirlər. Azsaylı xalqların orta məktəblərdə öz ana dillərində təhsil almaları dövlət tərəfindən təmin olunur.

Dəyirmi masada iştirak edən Azərbaycan Respublikasının Alban-Udi Xristian Dini İcmasının sədri Robert Mobili, Azərbaycanda yaşayan Axıska Türkləri Vətən İctimai Birliyinin sədr müavini Yusif Səfərov, "Buduq" Xeyriyyə Cəmiyyətinin sədri Rafiq Abdullayev bildiriblər ki, Azərbaycan demokratik, hüquqi dövlət quruculuğu istiqamətindəki fəaliyyətində milli və dini azlıqların hüquqlarının qorunmasına xüsusi diqqət yetirir. Əsrlər boyu Azərbaycanda müxtəlif xalqların nümayəndələri sülh, qarşılıqlı hörmət və etimad şəraitində yaşayıblar. Bu gün də Azərbaycanda yaşayan etnik, irqi, dini müxtəlifliklər heç bir assimilyasiyaya uğramadan sərbəst şəkildə yaşayır və dünya mədəniyyətinə inteqrasiya edirlər.

# ADU və Huçjou Universiteti
## arasında akademik mübadilə genişlənir

Azərbaycan Dillər Universitetinin (ADU) Konfutsi İnstitutunun professor-müəllim heyəti tərəfdaş Huçjou Universitetinin dəvəti ilə Çində işgüzar səfərdə olub.

Konfutsi İnstitutundan AZƏRTAC-a bildirilib ki, səfər Huçjou Universitetinin humanitar təhsil sahəsində innovativ təcrübəsi ilə tanış olmaq, xarici dillər üzrə tədris proqramlarını təkmilləşdirmək, birgə elmi multikultural tədqiqatlar aparmaq, ADU-da Çin dili və mədəniyyətinin tədrisi metodikasını inkişaf etdirmək məqsədi daşıyıb.

Huçjou Universitetinin prorektoru Li Qingfeng ilə görüşdə ADU-nun prorektoru Vüqar Mehrabov universitetlərarası əməkdaşlığın genişləndirilməsinin və möhkəmləndirilməsinin vacibliyini qeyd edib. O, ADU-nun beynəlxalq əməkdaşlığından, dil və mədəniyyət mərkəzlərinin fəal işindən, peşəkar kadrların hazırlanması sahəsində əldə etdiyi nailiyyətlərdən danışıb. Qeyd olunub ki, iki universitet arasında əməkdaşlığın əsasını müəllim və tələbə mübadiləsinin genişləndirilməsi, Huçjou Universitetində dillərin, xüsusən də Azərbaycan dilinin tədrisi metodlarının təkmilləşdirilməsi təşkil edir. Universitetdə fəaliyyət göstərən Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin işinin fəallaşdırılması, o cümlədən Azərbaycanın tarixi, mədəniyyəti və müasir həyatına dair birgə konfransların keçirilməsinin zəruriliyi də qeyd edilib.

# ADU-ya 100 kitab hədiyyə



Son illərdə Azərbaycanda təhsil sahəsinə yönələn diqqət artmaqdadır. Bu kontekstdə fərdi şəxslərin, eləcə də dövlət rəsmilərinin elmə, təhsilə və mədəniyyətə verdiyi dəstək xüsusi önəm daşıyır. Azərbaycan Dillər Universitetinə 100 kitab hədiyyə edən tanınmış ictimai-siyasi xadim, keçmiş millət vəkili Etibar Əliyevin bu addımı da təhsil ocaqlarının zənginləşdirilməsi və gənclərin intellektual inkişafına dəstək baxımından əhəmiyyətlidir.

Bu barədə çıxış edən Etibar Əliyev qeyd edib ki, uzun müddətdir Azərbaycan Dillər Universitetinə kitab hədiyyə etmək istəyib. Onun sözlərinə görə, kitabların seçimi üzərində böyük diqqətlə çalışıb və hər bir yaradır. Belə kitablar, elm sahəsinə marağı olan tələbələrin nəzəri biliklərini zənginləşdirmək üçün mükəmməl mənbədir. Etibar Əliyevin hədiyyə etdiyi 100 kitab arasında həmçinin universitetin təhsil profilinə uyğun əsərlər də yer alır ki, bu da Dillər Universitetinin tələbə kon-



kitabın tələbələrə elmi, sosial və mənəvi baxımdan faydalı olmasına xüsusi diqqət yetirib. Hədiyyə olunan kitablar içərisində həm dünya ədəbiyyatının, həm də elmi-populyar əsərlərin mühüm nümunələri yer alır. Bu kitabların bəziləri Nobel mükafatçılarına aiddir ki, bu da tələbələrin dünya elmi və ədəbiyyatı ilə tanış olmalarına töhfə verəcəkdir.

Hədiyyə olunan kitabların mövzu müxtəlifliyi tələbələrin fərqli sahələrdə biliklərini genişləndirməyə xidmət edəcəkdir. Kitablar arasında müasir beynəlxalq münasibətlər mövzusunda əsərlər də var ki, bu da Dillər Universitetinin xarici dil öyrənən və beynəlxalq əlaqələr sahəsində təhsil alan tələbələri üçün böyük əhəmiyyət kəsb edir. Belə kitablar vasitəsilə tələbələr müasir dünyanın siyasi, iqtisadi və sosial prosesləri ilə tanış olur, analitik düşüncə qabiliyyətlərini inkişaf etdirirlər.

Əlavə olaraq, elmi-populyar əsərlər gənclərin dünya elmi ilə yaxından tanış olmalarına şərait tingenti üçün xüsusi olaraq seçilmiş kitablar olduğu anlamını verir.

Millət vəkilinin özü tərəfindən yazılmış iki kitab da bu hədiyyə siyahısına daxildir. Bu kitablar, müəllifin şəxsi baxışlarını, araşdırmalarını və təcrübələrini əks etdirdiyindən, tələbələrə Azərbaycanın ictimai-siyasi həyatına, ölkənin inkişafına dair dərin məlumat təqdim edəcəkdir. Öz kitablarını tələbələrə hədiyyə etməsi, Etibar Əliyevin elmi yaradıcılığını gənclərə ötürmək və onları müzakirəyə cəlb etmək istəyindən xəbər verir.

Etibar Əliyev belə aksiyaların davamlı olacağını qeyd edib. Bildirib ki, belə aksiyalar cəmiyyətin inkişafında mühüm rol oynayır və təhsilin gələcəyinə olan inamı artırır.

Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla hədiyyəyə görə Etibar Əliyevə təşəkkürlərini bildirib, bu kitabların tələbələr üçün dəyərli mənbə olacağını vurğulayıb.

# Qarabağda dalğalanan zəfər bayrağımız




Azərbaycan Dillər Universitetində (ADU) Beynəlxalq münasibətlər və Regionşünaslıq (BMR) fakültəsi nəzdində Qafqazşünaslıq və Azərbaycan tarixi, Beynəlxalq münasibətlər, Fəlsəfə və ictimai elmlər, Diplomatik xarici dillər kafedralarının təşkilatçılığı ilə Zəfər Gününün ildönümü münasibətilə "Qarabağda dalğalanan zəfər bayrağımız" mövzusunda tədbir keçirilib. Tədbir Azərbaycan Respublikasının Dövlət Himni ilə başlayıb.

Beynəlxalq münasibətlər və regionşünaslıq fakültəsinin dekan müavini dosent Namiq Kərimov açılış nitqində 44 günlük Vətən müharibəsinin tarixi əhəmiyyətindən, zəfərin əldə edilməsinin əsasında Ulu Öndərin apardığı müdrik siyasətin prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin dayandığını vurğulayıb. O, xalqı hakimiyyət ətrafında birləşdirməyə nail oldu və 44 günlük müharibənin gedişində torpaqlarımız düşmənlərdən azad oldu.

Tədbirdə Fəlsəfə və ictimai elmlər kafedrasının professoru Şəfəq Abdullayeva "Zəfərə gedən yol və dayanıqlı inkişaf", Qafqazşünaslıq və Azərbaycan tarixi kafedrasının müəllimi Mina Qarayeva "Ulu Öndərin siyasətinin təntənəsi", Diplomatik xarici dillər kafedrasının laborantı Nigar Tanrıverdi "Böyük Qayıdışın əsas məqamları", Beynəlxalq münasibətlər kafedrasının baş müəllimi, t.f.d. Lamiyyə Namazova "44 günlük Vətən müharibəsinin milli və regional təhlükəsizliyə təsirləri" adlı məruzələrlə çıxış ediblər.

BMR fakültəsinin tələbəsi Mədinə Əhmədova və İngilis Fransız fakültəsinin tələbəsi Zöhrə Əfəndizadə Zəfər Gününə həsr olunan şeir səsləndiriblər.

Tədbirdə Zəfər Gününə həsr olunan videoçarx nümayiş olunub.

# ADU-da Birləşmiş Ərəb Əmirliyinin Bayraq Günü



Azərbaycan Dillər Universitetində (ADU) fəaliyyət göstərən Şeyx Zayed adına Ərəb dili auditoriyasında Birləşmiş Ərəb Əmirliyində qeyd edilən 3 noyabr - Bayraq Günü münasibətilə tədbir keçirilib.

Tədbirdə Azərbaycan Dillər Universitetinin prorektorları, dekanları, mərkəz müdirləri, universitetin Tərcümə və Regionşünaslıq fakültələrinin Ərəb dili ixtisasında təhsil alan tələbələri iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən adıçəkilən auditoriyanın müdiri, filologiya üzrə fəlsəfə doktoru Ülviyyə Hüseynova Birləşmiş Ərəb Əmirliyinin Bayraq Günü haqqında ətraflı məlumat verib. Ülviyyə Hüseynova, həmçinin əlamətdar gün münasibəti ilə Azərbaycan Dillər Universitetinin adından qardaş əmirlik xalqını təbrik edib.

Universitetin Tərcümə və Regionşünaslıq fakültələrinin Ərəb dili ixtisasında təhsil alan tələbələri Bayraq Günü münasibətilə Azərbaycan və ərəb dillərində çıxış edib, şeirlər səsləndirib, mahnılar ifa ediblər.

Tədbirin sonunda isə ərəbşünas tələbələr tərəfindən hazırlanan təbrik videoçarxı nümayiş olunub.

# ADU kollektivi Zəfər parkında

Sentyabrın 27-də Azərbaycan Dillər Universitetinin kollektivi Zəfər parkını ziyarət edib.

Parkın girişində xatirə daşının önünə gül dəstələri düzülərək qürur mənbəyimiz olan qəhrəman şəhidlərimizin əziz xatirəsi ehtiramla anılıb.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamına əsasən 27 Sentyabr - Anım Günü kimi qeyd edilir. Xalqımız ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalmış əsgər və zabitlərimizi, bütün şəhidlərimizi dərin ehtiramla yad edir.

Şanlı tarix yazan qəhrəman şəhidlərimizə Allahdan rəhmət diləyirik!

# Yaşıl dünya naminə həmrəylik: miqrasiya və etno-mədəni müxtəliflik

Oktyabrın 17-də Azərbaycan Dillər Universitetinin Multikulturalizm Mərkəzi və "Azərbaycanşünaslıq" Elmi Mərkəzinin birgə təşkilatçılığı ilə "COP 29" layihəsi çərçivəsində "Yaşıl dünya naminə həmrəylik: miqrasiya və etno-mədəni müxtəliflik" mövzusunda dəyirmi masa keçirilib.

Tədbiri giriş sözü ilə açan ADU-nun Multikulturalizm Mərkəzinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Loğman Rəşidzadə bildirib ki, müasir dünyanı narahat edən qlobal ətraf mühit problemləri həllini gözləyən təxirəsalınmaz məsələlərdəndir. İqlim dəyişmələri və onların canlı aləmə təsiri dünya ictimaiyyətini getdikcə daha çox narahat edir. Bu baxımdan, Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizədə dünyanın ən mötəbər tədbirlərindən olan "COP29"-a ev sahibliyi etməsi həm respublikamız, həm də bütün dünya üçün mühüm əhəmiyyət kəsb edir. "COP 29" layihəsi çərçivəsində keçirilən bugünkü tədbirdə müzakirə olunan məsələlər ekoloji problemlər haqqında məlumatlılığının artırılmasına kömək edəcək, insanların ətraf mühitin mühafizəsi fəaliyyətlərində iştirakını təşviq edəcək.



Dəyirmi masada məruzə ilə çıxış edən AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi Ağasəlim Həsənov bildirib ki, qlobal ekoloji böhran şəraitində cəmiyyət və ətraf mühit arasında zəruri balansın saxlanması bəşəriyyətin təbiətə münasibətindən asılıdır. Müasir dövrdə ekoloji həmrəyliyə xüsusi diqqət yetirilməsi, ekoloji mədəniyyətin yüksəldilməsi ən aktual məsələlər kimi qarşıda durur. Bu baxımdan, Azərbaycanda ekoloji vəziyyət xüsusi diqqət mərkəzindədir, ətraf mühitin mühafizəsi ilə bağlı müəyyən olunmuş prioritet tədbirlər uğurla həyata keçirilir.

Milli Azərbaycan Tarixi Muzeyinin aparıcı elmi işçisi Əli Fərhadov qədim şifahi və yazılı mənbələrdə insan-təbiət münasibətlərinin keçdiyi inkişaf yolu haqqında maraqlı məlumatlar verib. Bildirilib ki, bəşər yarananda bəri müqəddəs dini kitablarda, müxtəlif folklor nümunələrində insan-təbiət vəhdəti hər zaman ön plana çəkilib, təbiət müqəddəsləşdirilərək onun saflığının qorunması bəşər övladına tapşırılıb. Bunlar heç vaxt yaddan çıxmamalı, insan özü ilə bərabər, təbiəti, bəşəriyyəti, cəmiyyəti də sevməlidir. Təbiəti qorumaq üçün hamılıqla bu amal uğrunda birləşməliyik.

Dəyirmi masada iştirak edən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Analitika şöbəsinin müdiri Rəşad İlyasov, Azərbaycan Respublikasının Alban-Udi Xristian Dini İcmasının sədri Robert Mobili, Talış icmasının ağsaqqalı İmamverdi Həmidov, "Azərbaycan-Ukrayna Konqresi" İctimai Birliyinin sədri Yuriy Osadçenko və başqaları çıxış edərək bildiriblər ki, ekoloji problemlərin qarşısının alınması, ətraf mühitin qorunub saxlanması üçün birgə səylər, ekoloji həmrəylik vacib şərtdir. Bu baxımdan, təmiz ətraf mühit Azərbaycan dövlətinin milli hədəflərindən biridir. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Azərbaycanda keçirilməsi dünyanın diqqətini respublikamıza cəlb edəcək və onun davamlı inkişaf prinsiplərinə bağlılığını bir daha nümayiş etdirəcək.

# Qarabağ və Zəngəzurun yaşıl enerjisi

*dəyirmi masa*

Azərbaycan Dillər Universitetində Beynəlxalq münasibətlər və Regionşünaslıq fakültəsi nəzdində Qafqazşünaslıq və Azərbaycan tarixi kafedrasının, Azərbaycanşünaslıq Elmi Mərkəzinin birgə təşkilatçılığı ilə "Qarabağ və Zəngəzurun yaşıl enerji zonası kimi inkişafı" adlı dəyirmi masa keçirilib. Dəyirmi masada kafedra müdirləri, müəllimlər və mərkəz əməkdaşları iştirak ediblər.

Tədbirin moderatoru Beynəlxalq münasibətlər və Regionşünaslıq fakültəsinin dekanı, professor İbrahim Kazımbəyli COP 29-la bağlı fakültənin tədbirlər planına əsasən keçirilən dəyirmi masanın əhəmiyyətindən, Prezident İlham Əliyevin "Qarabağ və Zəngəzurun yaşıl enerji zonası kimi inkişafı" haqqında sərəncamından bəhs edib.

Qafqazşünaslıq və Azərbaycan tarixi kafedrasının müəllimi Sevinc Abbasova "Zəngəzur yaşıl enerji zonası kimi" mövzusunda çıxış edərək Zəngəzurun tarixi Azərbaycan torpağı olması və burada bərpa olunan enerji potensialından istifadə etməklə ərazinin ekoloji cəhətdən təmiz yaşıl enerji ilə təmin edilməsi perspektivləri haqqında məlumat verib. Qafqazşünaslıq və Azərbaycan tarixi kafedrasının müəllimi Aysel Nəhmətova "Azərbaycanın ekoloji və sosial davamlılıq siyasətində Qarabağın rolu" mövzusunda çıxışında Qarabağda günəş, külək enerjisi potensialı, su-hidroenerji balansı, istifadəyə verilmiş SES-lər, Azərbaycanda ilk ağıllı kənd olan Ağalı kəndinin yaşıl enerji ilə təmin olunması, regionun işıqlandırılmasında payı olan yerli və xarici şirkətlər haqqında məlumat verib.

Regionşünaslıq kafedrasının professoru Əli Məmmədov müzakirələrdə çıxış edərək, işğaldan azad edilmiş ərazilərin bərpası prosesinin mühüm tərkib hissəsi kimi enerji infrastrukturunun qurulması və enerji təhlükəsizliyinin təmin edilməsinə xüsusi əhəmiyyət verildiyini bildirib.

# ADU-da ağacəkmə aksiyası



Azərbaycan Dillər Universitetinin Filologiya fakültəsinin nəzdindəki kafedraların təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "Gələcəyimiz üçün ağac əkək" devizi altında ağacəkmə aksiyası keçirilib.

Aksiyanın keçirilməsində məqsəd yaşıllıqların artırılmasını, ağac əkməklə ekoloji tarazlığın qorunmasını təşviq etməklə ətraf mühitin sağlamlaşdırılmasına, iqlim dəyişikliyi ilə mübarizəyə töhfə vermək, atmosferi oksigenlə zənginləşdirməkdir.

Fakültənin əməkdaşları və tələbələri bu cür ekoloji aksiyaların mütəmadi olaraq təşkili ilə ətraf mühitin mühafizəsinin vacibliyini insanların, xüsusilə, gənc nəslin diqqətinə çatdırıb və onları ekoloji problemlərə qarşı mübarizədə birgə fəaliyyətə səsləyiblər.

# "Təbiətə çox yaxın"

*kitab təqdimatı*

Azərbaycan Dillər Universitetinin (ADU) təşəbbüsü və Tərcümə fakültəsinin təşkilatçılığı ilə German dillərinin tərcümə nəzəriyyəsi və praktikası kafedrasının müəllimi, yazıçı, tərcüməçi, şair, Yazıçılar Birliyinin üzvü Yusif Savalanın müəllifi olduğu "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "Təbiətə çox yaxın" adlı kitabının təqdimatı keçirilib.

Tədbirdə şair-tərcüməçi Azad Yaşar, həkim, şair Fəxri Ağdamlı, Filologiya fakültəsi nəzdində Xarici Ölkələr Ədəbiyyatı kafedrasının müdiri, professor Aynur Sabitova, Pedaqoqika kafedrasının dosenti Oqtay Əliyev, rektorun sosial məsələlər üzrə müşaviri Ələddin Əliyev, rektorun məsləhətçisi Anar Osmanlı və German dillərinin tərcümə nəzəriyyəsi və praktikası kafedrasının müdiri, dosent Fialə Abdullayeva, kafedranın müəllimi, professor Şəhla Nağıyeva iştirak ediblər.

Giriş sözü ilə çıxış edən fakültə dekanı, dosent Bənövşə Məmmədova kitabın COP29 ərəfəsində ərsəyə gəlməsindən danışıb.

Tədbirdə çıxış edən digər qonaqlar müəllifin həyat və yaradıcılığı haqqında ürək sözlərini bildiriblər.

Tədbirin sonunda alman dili üzrə təhsil alan müxtəlif kurs tələbələri "Təbiətə çox yaxın" adlı kitabdan alman və Azərbaycan dillərində şeirlər səsləndiriblər.

# Ekoloji mövzuda maarifləndirici tədbir

Azərbaycan Dillər Universitetinin Beynəlxalq münasibətlər kafedrası, Doktorantura şöbəsi, Magistratura şöbəsi və "Azərbaycanşünaslıq" Elmi Mərkəzinin birgə təşkilatçılığı ilə "COP29" layihəsi çərçivəsində "Tullantıların idarə edilməsi: təkrar emalın və təkrar istifadənin əhəmiyyəti" mövzusunda dəyirmi masa keçirilib.

Tədbiri giriş sözü ilə açan Beynəlxalq münasibətlər kafedrasının dosenti Samirə İmanova tullantıların təkrar emal olunmasının böyük əhəmiyyəti ilə bağlı ümumi məlumat verib. Bildirilib ki, tullantıların təkrar emalı və bərpası ətraf mühitin qorunmasının və zibilxanalara düşən tullantıların miqdarının azaldılmasının vacib hissəsidir.

Beynəlxalq münasibətlər kafedrasının müəllimi Günel Hacalıyeva "Tullantılardan formalaşan "yeni qitə" - Sakit Okeanın böyük "zibil adası" mövzusu problemi" ilə çıxış edərək bildirib ki, kütləvi zibil yığını Sakit okeanın 1,5 milyon kvadrat kilometr ərazisini tutur və okeanın ekosistemi üçün böyük təhlükə yaradır.

Beynəlxalq münasibətlər kafedrasının doktorantı Athar Azhar Mahmood "Təkrar emal sahəsinin inkişaf tarixi və müasir vəziyyəti", Beynəlxalq münasibətlər kafedrasının magistrantları Gülşən Vəliyeva "Tullantıların idarə edilməsi sahəsində Azərbaycan Respublikasının siyasəti", İlahə Qəmbərli isə "Təkrar istehsal sahəsində dünya təcrübəsi" mövzularında çıxış edərək faydalı məlumatlar veriblər.

Tədbirin sonunda Regionşünaslıq kafedrasının müdiri, professor Sevdagül Əliyeva, Beynəlxalq münasibətlər kafedrasının müdiri, professor Aida Yusifova mövzu ilə bağlı fikirlərini bölüşüblər.

Dəyirmi masa müzakirələrlə yekunlaşıb.

# ADU ekoloji aksiyada

Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Yaxın günlərdə isə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 cari il ölkəmizdə keçiriləcək. Bu səbəbdən COP29 ilə əlaqədar silsilə tədbirlər ölkəmizdə davam edir.

Bununla əlaqədar olaraq, Azərbaycan Dillər Universitetinin İngilis-Alman dilləri fakültəsi nəzdində fəaliyyət göstərən İngilis dilinin fonetikası kafedrasının müdiri dosent Xatirə Qocayevanın rəhbərliyi ilə kafedranın əməkdaşları və 105b və 224a qrup tələbələri tərəfindən dənizkənarı sanitar vəziyyətin lazımi səviyyədə saxlanılması məqsədilə müvafiq qaydalara, gigiyena və ekoloji normativlərə uyğun şəkildə məişət tullantılarının təmizlənməsi və Novxanı qəsəbə dənizkənarı tullantılarının zərərsizləşdirilməsi poliqonuna daşınması həyata keçirilib.

Tədbirin əsas məqsədi ətraf mühitin təmizliyinə riayət olunmasını təbliğ etmək, gəncləri dənizətrafı sahələrin mühafizəsinə cəlb etmək, ekoloji və sosial məsuliyyətin, ictimai gigiyena vərdişlərinin təbliğində nümunəvi davranışları nümayiş etdirməkdir.

Ekoloji təhlükəsizliyin təmin olunması üçün ətraf mühitin çirklənməsinin minimuma endirilməsi, indiki və gələcək nəsillərin tələbatını ödəmək məqsədilə təbii sərvətlərdən səmərəli istifadə Azərbaycan dövlətinin ekoloji siyasətinin əsas istiqamətlərindən biridir.

# COP29-a həsr olunan dəyirmi masa

Azərbaycan Dillər Universiteti və Təhsil İnstitutunun birgə təşkilatçılığı ilə "COP29 ekoloji və sosial-iqtisadi davamlılığın təminatçısı kimi" mövzusunda dəyirmi masa keçirilib və "Yaşıl kitablar" adlı virtual kitab sərgisi təşkil olunub.



Tədbirin moderatoru Təhsil İnstitutunun şöbə müdiri, dosent Aynur Paşayeva təhsil müəssisələrində iqlim dəyişikliyi və COP29 ilə bağlı maarifləndirmə kampaniyalarının aparılmasının vacibliyindən danışaraq bu dəyirmi masanın təşkilinin gənclər, tələbələr üçün maraqlı və düşündürücü olacağını vurğulayıb, "Yaşıl dünya naminə həmrəylik ili"ndə COP29-un Azərbaycan üçün iqtisadi, siyasi, elmi əhəmiyyətindən danışıb. Qeyd olunub ki, Azərbaycan neft-qaz ölkəsi olmaqla yanaşı, ölkəmizdə iqlim dəyişmələri zamanı ekoloji təhlükəsizliyin təmin edilməsinə, "yaşıl iqtisadiyyat"a keçidə xüsusi diqqət ayırır və bu strategiyanın koordinasiyasında milli, beynəlxalq, regional səviyyələrdə təbii ehtiyatların mühafizəsi, elmə əsaslanan inkişaf prinsiplərinin tətbiqi iqtisadi-siyasi davamlılığının təminatına yönələn vacib amillərdir.

Tədbirdə UNEC-in dosenti Kəmalə Nəcəfova "COP29 və iqlim dəyişikliyi ilə mübarizənin iqtisadi təsiri" mövzusunda məruzə edərək COP29-u iqlim dəyişikliyinə qarşı qlobal tədbirlərin sosial-iqtisadi təsirlərini müzakirə edən bir zirvə kimi dəyərləndirib. Çıxış zamanı bərpa olunan enerjinin genişləndirilməsi, "yaşıl iş yeri"nin yaradılması, karbon emissiyalarının azaldılması ilə əlaqədar olaraq iqtisadi struktura, həyat tərzinə əhəmiyyətli dəyişikliklər edəcəyi, sosial bərabərliyə, ekoloji məsuliyyətin artırılmasına və dayanıqlı inkişafın dəstəklənməsinə töhfə verəcəyi diqqətə çatdırılıb.

ADU-nun müəllimi Aysel Nəhmətova "Qarabağın ekoloji cəhətdən bərpası və sosial-iqtisadi inkişaf" mövzusunda maraqlı çıxış edərək qeyd edib ki, işğaldan azad olunmuş Qarabağ ərazisində təbii resursların ekoterrora məruz qalması, su ehtiyatlarının, çayların kəskin çirklənməsi, ağacların kəsilməsi, meşələrin məhv edilməsi iqlim dəyişikliyinə yol açan qlobal istiləşməyə, torpaq eroziyasına, daşqınlara, flora və faunanın müxtəliflik itkisinə səbəb olub. Bütün bunlara baxmayaraq, Milli Strategiyamıza əsasən ölkədə su ehtiyatlarının səmərəli istifadəsi, idarə edilməsi və çirklənməsinin qarşısının alınması, dəniz suyunun duzsuzlaşdırılması, suvarma sistemlərinin modernləşdirilməsi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının təbii resurslardan düzgün istifadəsi, Qarabağda "yaşıl enerji zona"sının yaradılması prioritet məsələlərdəndir.

Dəyirmi masada Təhsil İnstitutunun baş mütəxəssisi Fatma Sofiyeva "COP29: mahiyyəti və əhəmiyyəti" mövzusunda çıxış edərək iqlim dəyişikliyinin yaranma səbəbləri və hazırda mövcud olan qlobal ekoloji problemlərin bu proseslə əlaqəsinə toxunub və iqlim dəyişikliyinin Azərbaycana təsirlərindən, hazırda respublikamızın mövcud qlobal problemlərlə bağlı üzərinə götürdüyü öhdəliklərdən bəhs edib.

UNEC-in müəllimi Cəmilə Həsənova "İqlim dəyişikliyi siyasətinin sosial ədalətə və iqtisadi bərbərsizliyə təsiri: COP29 perspektivləri" mövzusu ətrafında COP29-un sosial ədalətə təsiri, iqlim siyasətində bərabərsizliyin aradan qaldırılması, iqlim dəyişmələrinə qarşı mübarizədə ədalətli yanaşmaların formalaşması, daha dayanıqlı və ədalətli bir cəmiyyətin yaranması kimi bir sıra məsələlərə toxunub.

UNEC Kitabxana-İnformasiya Mərkəzinin kitabxana müdiri Arzu Məmmədova "Yaşıl Kitabxana" konsepsiyası əsaasında dünyanın ekoloji təmiz, xüsusi qaydalarla yaradılmış və məqsədli xidmətləri ilə seçilən kitabxanaları, eləcə də insan sağlamlığına təsir edən, ciddi fəsadlar yarada bilən nəşrlər barədə geniş danışıb.

Tədbirin sonunda yaradıcı tələbələrin "COP29" və "Yaşıl dünya naminə həmrəylik ili"nə aid rəsm əsərləri nümayiş etdirilib.

# Azərbaycan - təmiz ətraf mühit ölkəsi



Azərbaycan Dillər Universitetinin (ADU) Filologiya fakültəsi nəzdində Xarici dillərin tədrisi metodikası kafedrası tərəfindən Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə bağlı "Azərbaycan təmiz ətraf mühit va yaşıl artım ölkəsi kimi" mövzusunda dəyirmi masa keçirilib.

Filologiya fakültəsi nəzdində Xarici dillərin tədrisi metodikası kafedrasının müdiri, dosent Sevinc Hüseynova dəyirmi masanı giriş sözü ilə açaraq qlobal tədbirin ölkəmizdə keçirilməsinin böyük əhəmiyyətindən bəhs edib. Dosent S.Hüseynova çıxışında COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qərarın dünya birliyinin ölkəmizə qarşı olan böyük etimad və inamının göstəricisi olduğunu bildirib.

Dəyirmi masada Filologiya fakültəsinin dekanı, professor Həmidə Əliyeva və digər kafedra müdirləri qonaq qismində iştirak ediblər.

Dəyirmi masada Filologiya fakültəsinin tələbəsi Z.Qədməliyeva "Azərbaycan təmiz ətraf mühit va yaşıl artım ölkəsi kimi" haqqında ümumi məlumat verib.

Daha sonra Filologiya fakültəsinin tələbələri - N. Məmmədova "Azərbaycanın beynəlxalq təşəbbüslərdə iştirakı, N.Orucəliyeva "Azərbaycanda yaşıllaşdırma proqramları, N.Simandu-yeva "Vosstanovlenie svəzi çeloveka s prirodoy- klöç k reşeniö klimatiçeskoqo krizisa", S.Cavadova "Green world solidarity year in Azerbaijan", G.Ehtibarova və B.Qədməliyeva "İctimaiyyətin ekoloji maarifləndirilməsi və sosial təşəbbüslər", N. Abdurrahmanova "Yaşıllaşdırma ölkəmizə nələri qazandıracaq?" mövzularında video-təqdimatlarla çıxış ediblər.

Filologiya fakültəsinin dekanı, professor Həmidə Əliyeva dövlətimizin başçısı tərəfindən 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi, Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyinin bu sahədə həyata keçirilən tədbirlərə mühüm töhfə verəcəyini qeyd edib.

Dəyirmi masa müzakirələrlə davam edib.

Tədbirin sonunda Xarici dillərin tədrisi metodikası kafedrasının müdiri, dosent Sevinc Hüseynova tələbələrə sertifikatlar təqdim edib.

# Ətraf mühiti təmiz və yaşıl saxlamalı

Azərbaycan Dillər Universitetində (ADU) BMR fakültəsi nəzdində Diplomatik xarici dillər kafedrasının müdiri, professor N.Seyidovanın təşəbbüsü və təşkilatçılığı ilə kafedranın ingilis dilində təhsil alan tələbələr üçün Heydər Əliyev adına muzey lektoriyada "COP29 çərçivəsində ətraf mühitimizin təmiz və yaşıl saxlamağın önəmi" ("The importance of keeping our environment clean and green within the framework of Cop-29") adlı dəyirmi masa keçirilib.

Dəyirmi masanı giriş sözü ilə açan moderator BMR fakültəsi nəzdində Diplomatik xarici dillər kafedrasının fil.f.d.b/m. Pərvanə Cəfərova Azərbaycanın dünya miqyasında böyük bir tədbirin astanasında olduğunu qeyd edib və Cop29-a ölkəmizdə hazırlıqların yüksək səviyyədə davam etdiyini vurğulayıb.

Pərvanə Cəfərova bildirib ki, dünyanın 80%-nin iqlim dəyişmələrindən əziyyət çəkdiyi bir vaxtda Bakıda təşkil olunacaq bu genişmiqyaslı tədbirdə problemin həlli yolları müzakirə ediləcək, bu istiqamətdə mühüm qərarlar veriləcək.

Dəyirmi masada BMR fakültəsinin Beynəlxalq münasibətlər, Britaniyaşünaslıq və Amerikaşünaslıq ixtisaslarında ingilis dilində təhsil alan tələbələr iqlim dəyişikliyi, yaşıl enerji ölkəmizdə ətraf mühitin qorunması istiqamətində həyata keçirilən tədbirlər barədə ingilis dilində çıxış edərək prezentasiyalarını təqdim ediblər.

Tələbələr - BMR fakültəsinin Britaniyaşünaslıq ixtisası üzrə 166i qrupunun tələbəsi Tuncay Nəcəfli "Climate change-what is climate change? The effects of climate change", BMR fakültəsinin Amerikaşünaslıq ixtisası üzrə 172i qrupunun tələbəsi Dunay Mahmudova "Greenhaous gas emmissions", BMR fakültəsinin Amerikaşünaslıq ixtisası üzrə 172i qrupunun tələbəsi Leyla Qürbətli "Cop-conference of parties, goals and obligations", BMR fakültəsinin Beynəlxalq Münasibətlər ixtisası üzrə 195i qrupunun tələbəsi Xalisə Muradova " COP29 AZERBAİJAN", BMR fakültəsinin Britaniyaşünaslıq ixtisası üzrə 166i qrupunun tələbəsi Aysu Əliyeva isə " How to keep our environment clean and green" adlı mövzularda prezentasiya ilə çıxış ediblər.

Dəyirmi masa tələbələr arasında müzakirələr davam edib.

# Təbiətin qorunması Azərbaycan yazıçılarının əsərlərində

Azərbaycan Dillər Universitetində (ADU) Fəlsəfə və ictimai elmlər kafedrasının təşəbbüsü ilə Azərbaycanşünaslıq mərkəzində "Azərbaycan yazıçılarının əsərlərində təbiətin qorunması haqqında fikirlər" adlı dəyirmi masa keçirilib.

Tədbirin moderatoru Fəlsəfə və ictimai elmlər kafedrasının müdiri dos. Ədalət Abdiyeva təbiətin qorunmasının əhəmiyyəti ilə bağlı məlumat verib.

"Müasir Azərbaycan filosoflarının yaradıcılığında ekoloji fəlsəfə və mənəviyyat problemi" mövzusunda çıxış edən Fəlsəfə və ictimai elmlər kafedrasının baş müəllimi Günel Qarayeva XX-XXI əsrlərdə Azərbaycan mütəfəkkirlərinin insan ekologiyası, şəxsiyyətin ekolojiləşdirilməsi, ekoloji şüur, ekoloji tərbiyə, ekoloji əxlaq kimi anlayışlara fəlsəfi yanaşması barədə danışıb. O həmçinin ekoloji şüurun inkişafının şərtlərini və əhəmiyyətini diqqətə çatdırıb.

Fəlsəfə və ictimai elmlər kafedrasının baş müəllimi, i.f.d. Leyla Hacıyeva "Müstəqil Azərbaycanda ekologiyanın qorunmasının sosial-iqtisadi aspektləri" adlı çıxış edərək, Azərbaycanda ekoloji-iqtisadi proseslərin mahiyyəti, ekoturizm, ekoloji cəhətdən təhlükəsiz iqtisadiyyatın inkişafı üçün görülən tədbirlər və hərakatlar haqqında məlumat verib.

Azərbaycan ədəbiyyatı kafedrasının dosenti, fil.f.d. Aytən Hacıyeva "Klassik Azərbaycan ədəbiyyatında təbiət" mövzusu ilə Nəsimi, Nizami Gəncəvi, Cəlaləddin Rumi və s. şairlərin yaradıcılığında təbiətə zərif münasibəti, onun vəsfi haqqında poetik-fəlsəfi məzmunlu çıxış edib.

Fəlsəfə və ictimai elmlər kafedrasının baş müəllimi Sevda Tağıyeva "Azərbaycan yazıçılarının əsərlərində təbiətin təsviri" adlı çıxışında Səməd Vurğun, Məmməd Araz, Süleyman Rüstəm, İslam Səfərli kimi mütəfəkkirlərin əsərlərində təbiətə qayğı və sevgi ilə münasibətin ifadəsini tədbirin iştirakçılarının nəzərinə çatdırıb. Sevda Tağıyeva çıxışını Ulu öndər Heydər Əliyev irsindən gətirilən sitatlarla yekunlaşdırıb.

Tədbirdə Beynəlxalq münasibətlər və Regionşünaslıq fakültəsinin dekanı, dosent İbrahim Kazımbəyli də mövzu ətrafında fikirlərini bildirib.

# Azərbaycanın iqlim siyasətində liderlik rolu

## *Millət vəkili Könül Nurullayeva ilə müsahibə*

***"Poliqlot"un "Fəxri məzunlarımız" rubrikasının budəfəki qonağı tanınmış dövlət və siyasi xadim, Milli Məclisin üzvü Könül Nurullayevadır.***

***Millət vəkili Könül Nurullayeva: "Azərbaycanın yekdilliklə COP29-un ev sahibi kimi dəstəklənməsi milli, regional və qlobal miqyasda iqlim dəyişikliyi probleminin həllində ölkəmizin liderliyinin və səylərinin qəbul edildiyini göstərir. COP29-a ev sahibliyi etməklə Azərbaycan iqlim dəyişikliyi ilə bağlı problemlərin həllində qlobal həmrəyliyi daha çox təşviq etməyə sadiq olduğunu göstərir".***

**- Könül xanım, yaxın günlərdə Azərbaycanda son dərəcə möhtəşəm beynəlxalq tədbir - COP29 keçiriləcək. Gəlin, söhbətimizə gündəmdə duran bu vacib mövzudan başlayaq. İlk öncə, COP tədbirləri haqqında ümumi məlumat verməyinizi xahiş edərdim? Bu tədbirlər nədən ibarətdir və əsas məqsədləri nədir?**

- BMT İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP-un (Conference of Parties) ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. Tərəflər Konfransı İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali qərarverici orqandır. Burada tərəflər Konvensiyaya üzv olan 198 ölkədir. Əgər tərəflərin fərqli qərarı olmazsa, COP hər il keçirilir. COP-un ilk tədbiri 1995-ci ilin martında Berlində baş tutub, katibliyi Bonn şəhərində yerləşir. COP-a ev sahibliyi bir qayda olaraq BMT-nin beş regional qrupu arasında rotasiya edir. BMT-nin 5 regionunun - Afrika, Asiya, Latın Amerikası, Karib Hövzəsi və Avropa (Mərkəzi, Şərqi, Qərbi və digər) ölkələrinə keçir. Həmçinin bu regionlardakı qrup ölkələri arasında da sədrliklə bağlı növbələşmə mövcuddur. Azərbaycanın təşkilata sədrliyinə dair qərar da məhz Şərqi Avropa Qrupu ölkələrinin yekdil rəyi əsasında verilib.

**- COP tədbirlərində qəbul olunan qərarlar və razılaşmalar dünya ölkələri tərəfindən necə həyata keçirilir?**

- COP-un davamlı keçirilməsi göstərir ki, bu platforma olduqca səmərəlidir. Burada qəbul edilən qərar və razılaşmalar təqdir və tətbiq olunur. Məlumdur ki, COVID-19 bütün dünyada iqlim siyasətinin sürətinə təsir etdi. Rəsmilər də qeyd edir ki, ötən il Dubayda keçirilən COP28 iqlim dəyişikliyinə uyğunlaşmaya töhfə verən tədbirlərin və fəaliyyətlərin gələcək inkişafı üçün lazımi dəstəyi yeniləməyi bacardı. Azərbaycan isə bu prosesi davam etdirmək və sürətləndirmək niyyətindədir. Bakıda keçiriləcək COP29-un qlobal və milli maliyyə ilə iqlim dəyişikliyinin həlli üçün çərçivə yaradacağına ümid var.

**- Azərbaycanın bu möhtəşəm konfransa ev sahibliyi etməsinin əhəmiyyəti nədir və COP29 ölkə üçün hansı perspektivlər vəd edir?**

- Azərbaycanın yekdilliklə COP29-un ev sahibi kimi dəstəklənməsi milli, regional və qlobal miqyasda iqlim dəyişikliyi probleminin həllində ölkəmizin liderliyinin və səylərinin qəbul edildiyini göstərir. COP29-a ev sahibliyi etməklə Azərbaycan iqlim dəyişikliyi ilə bağlı problemlərin həllində qlobal həmrəyliyi daha çox təşviq etməyə sadiq olduğunu göstərir. Bütün səylər bu təxirəsalınmaz işə böyük töhfə verməyə yönəlib. Prezident İlham Əliyevin də söylədiyi kimi, biz buna beynəlxalq arenada ən təxirəsalınmaz məsələnin praktiki həllinə töhfə vermək imkanı kimi baxırıq. Ümumiyyətlə, COP29-a ev sahibliyi etmək Azərbaycan üçün böyük məsuliyyətdir. Prezident İlham Əliyevin cari ilin aprelində Almaniyada keçirilən iqlim dialoqunda bəyan etdiyi kimi, biz nəinki yaxşı tədbir təşkil etməli, o cümlədən yaxşı nəticələrə nail olmalıyıq.

**- Builki COP tədbiri hansı mövzuları diqqət mərkəzində saxlayacaq?**

- COP29-un gündəliyində olan əsas mövzu iqlim dəyişikliyi ilə mübarizə üçün maliyyə məsələsi olacaq. Karbon emissiyasının azaldılması, qlobal bərpaolunan enerji və enerji səmərəliliyi məsələləri Azərbaycan tərəfindən təşviq olunacaq. Eyni zamanda, Yaşıl dəhlizlə bağlı təkliflər də müzakirə olunacaq. Azərbaycan bu məsələdə əsas təşəbbüskarlardan biridir.



COP29-da "İqlim Maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Məqsədi" (NCQG) razılaşdırmaq üçün konstruktiv şəkildə birlikdə işləmək olduqca vacbdir.

COP29 rəhbərliyi iqlim maliyyələşdirməsini gücləndirmək və ehtiyac duyduğumuz dəstəyə nail olmaq üçün çoxtərəfli maliyyə institutları, özəl sektor, maliyyə xidmətləri sənayesi kimi geniş spektrli tərəfdaşlarla işləyir. İqlim fəaliyyətinin bu kritik onilliyində hər kəsin öz üzərinə düşən vəzifəni yerinə yetirməsi vacibdir.

Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulub. Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35% azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarını 40% azaldılmasından ibarətdir.

Prezident İlham Əliyev ölkəmizin işğaldan azad edilmiş torpaqlarını "Yaşıl enerji" zonası elan edib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur.

***Millət vəkili Könül Nurullayeva: "ADU-da dəyərli müəllimlərimin mənə öyrətdikləri mənim iş fəaliyyətimdə çıraq rolunu oynamışdır, bu biliklər mənim peşəkar inkişafımda və qərar qəbul etmə proseslərimdə əvəzsiz bir təməl yaratmışdır"***

Təbii ki, yaşıl kapital bazarlarını dərinləşdirmək üçün maliyyə xidmətləri sənayesinə ehtiyac var. Bu, bizə planetin mühafizəsinin fayda verdiyinə əmin olmaq üçün iqlimə müsbət təsir göstərən iqtisadi modellər yaratmağa imkan verəcək.

Məlumdur ki, iqlim dəyişikliyi milli sərhədləri aşan qlobal çağırış və bu günün real təhlükəsidir. Ona görə də daha geniş miqyasda və daha sürətli şəkildə hərəkətə keçməyin vaxtıdır.

İqlim uyğunlaşması iqlim dəyişikliyinə qlobal reaksiya üçün kritik rol oynayacaq. Zərərin aradan qaldırılması və uyğunlaşma daha yüksək səviyyələrdə maliyyə öhdəlikləri tələb edir. İtki və zərərlərə cavab vermək üçün səylərin birləşdirilməsi vacibdir.

**- Zəngin neft-qaz ölkəsi olan Azərbaycanın yaşıl iqtisadiyyata keçid strategiyasını necə qiymətləndirirsiniz?**

- Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə

**- COP29-dan hansı yenilikləri və ya dəyişiklikləri gözləyirsiniz?**

- COP29 konfransında bir sıra mühüm dəyişikliklər və yeniliklər gözlənilir. Ən vacib məsələlərdən biri iqlim maliyyəsi olacaq, xüsusilə inkişaf etmiş ölkələrin az inkişaf etmiş ölkələrə iqlim dəyişikliyi ilə mübarizədə daha çox maliyyə dəstəyi verməsi təklif olunacaq. Konfransda gender bərabərliyi və yerli icmaların iştirakının artırılması kimi mövzular da əhatə ediləcək. Yeniliklər arasında, iqlim texnologiyaları, innovasiyaların inkişafı və tətbiqi ilə bağlı təşəbbüslərin başlanması da yer alacaq. Beynəlxalq inkişaf banklarının iqlim maliyyəsinə daha çox töhfə verməsi də gündəmdə olacaq. Nəhayət, əvvəlki iqlim konfranslarında əldə edilən razılaşmaların yerinə yetirilmə səviyyəsi də bu konfransda qiymətləndiriləcək.

**- Könül xanım, bioqrafiyanız son dərəcə zəngindir. Siz ölkənin gənclər hərəkatı, idman aləmi, beynəlxalq təmsilçilik və s. sahələrdə səmərəli fəaliyyət göstərmisiniz. Bəs necə oldu, bu geniş fəaliyyət dairəsi ilə yanaşı, millət vəkili də olmağa qərar verdiniz?**

- İnsanları qayğılandıran məsələlər çalışdığım yerdən və məkandan asılı olmayaraq, həmişə məni narahat edib. Bu məsələlərin həllinə töhfə vermək və bu prosesdə birbaşa iştirak etmək arzusu məndə əvvəlcədən olub. Millətimizin firavanlığı naminə çalışmaq, cəmiyyətimiz üçün daha yararlı olmaq və ölkəmizi daha böyük miqyasda təmsil etmək məni hər zaman maraqlandırıb. Millət vəkili olaraq bizim əsas vəzifəmiz xalqla dövlət strukturları arasında körpü rolunu oynamaqdır. Ona görə də deputat kimi özümü sınamaq, sözügedən prosesə müsbət təsir göstərmək niyyətindəyəm. Bu səbəbdən, Partlamentin üzvü kimi çalışaraq xalqımız üçün əlimdən gələni etməyi və cəmiyyətimizə faydalı işlər görməyi qarşıma məqsəd qoymuşam.

Eyni zamanda onu da qeyd edim ki, gənclər hərəkatı və idman sahəsi üzrə müxtəlif iri-miqyaslı beynəlxalq layihələrdə çalışmağım, onlarla sosial problemin həllinə dəstək olmağım məni bu qərarı verməyə sövq etdi. MOK-un Beynəlxalq Əlaqələr İdarəsinin rəhbəri olaraq çalışdığım dövrdə beynəlxalq tədbirlərdə Azərbaycanı təmsil etməyim mənə qlobal səviyyədə təcrübə qazandırdı və geniş əlaqələr qurmağa imkan verdi. Millət vəkili kimi, bu təcrübə və biliklərimi qanunvericilik sahəsində tətbiq etmək üçün əlimdən gələni etmək istəyirəm. Həmçinin bildirim ki, qadınların siyasətdə və idarəçilikdə daha çox yer almasına yardımçı olmaq məqsədim də bu qərarı verməyimə təsir etdi. Beləliklə, cəmiyyətimiz üçün daha böyük işlər görmək məqsədilə bu qərarı verdim.

**- Millət vəkili kimi hansı uğurlara nail olmusunuz və bu nailiyyətlərdən hansıları ilə xüsusi olaraq fəxr edirsiniz?**

- İlk növbədə, millət vəkili olaraq bizim əsas vəzifələrimizdən biri insanların problemlərini həll etməkdir. Bu müddət ərzində mənə müraciət edən bir çox şəxsin problemlərinin həllinə səlahiyyətlərim çərçivəsində səy göstərmişəm. Bakı şəhəri Nizami rayonu üzrə vətəndaşların qaldırdığı məsələ-

lərin həllində iştirak etmişəm. Eyni zamanda qeyd etmək istərdim ki, qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təşviqi, gənclərin inkişafı və idman sahələrində də ölkəmizə töhfə vermək üçün çalışmışam. Xarici əlaqələr və diplomatiya sahəsində, xüsusilə Qarabağ məsələsində beynəlxalq ictimaiyyətə Azərbaycanın haqlı mövqeyini çatdırmaq üzrə fəaliyyət göstərmişəm. Bu kontekstdə cəmiyyətimizə və dövlətimizə faydalı olmağı bacara bilmişəmsə, bu, mənim üçün böyük bir uğurdur.

**- Deputatlıq və ictimai fəaliyyətlə yanaşı, şəxsi həyatınızı necə balanslaşdırırsınız?**

- Çalışıram ki, ailəmə və əzizlərimə diqqət yetirim. Lakin xidmət etdiyim insanlar da mənim ailəmin üzvləridir. Onların da daim mənim dəstəyimə ehtiyacı var. Bu balansı qoruyub saxlamaq çox çətindir. Bacardığım qədər çalışıram ki, həm bir valideyn olaraq, həm bir övlad kimi, həm də bir dost olaraq yaxın çevrəmdə olan insanlara da zaman ayıra bilim, onların da mənəvi şəkildə yanlarında olum, onlarla birgə vaxt keçirməkdən zövq alım. Bu, mənim üçün olduqca vacib məsələdir.

Xüsusilə, sosial baxımdan həssas qrupa daxil olan vətəndaşlarımızı, şəhid ailələrini, qazilərimizi qayğı və sevgi ilə əhatə etmək, onların yanında olmaq bizim mənəvi borcumuzdur. Dövlətimiz tərəfindən bu qrupa daxil olan dəyərli həmvətənlərimiz daim diqqət mərkəzində saxlanılır. Dövlət siyasətinə uyğun olaraq mən də çalışıram ki, bu istiqamətdə öz əməyimi heç bir zaman əsirgəməyim. Qaldırılan məsələlərin həlli üzrə onların xidmətində olaraq üzərimə düşən vəfizəni layiqincə yerinə yetirməyə səy göstərirəm.

**- Könül xanım, siz Azərbaycan Dillər Universitetinin məzunusunuz. Bu ali tədris ocağında aldığınız təhsil, xarici dil biliklərinizin karyeranızda necə rol oynayıb?**

- Bildiyiniz kimi, Azərbaycan Dillər Universitetinin beynəlxalq münasibətlər fakültəsinin məzunuyam. Sözsüz ki, aldığım təhsil, əldə etdiyim bilik və bacarıqlar, öyrəndiyim dillər, müxtəlif könüllülük proqramlarında, beynəlxalq səviyyəli layihələrdə, seminar, konfrans və təlimlərdə iştirakım fəaliyyətimin daha keyfiyyətli qurulmasında mənə böyük dəstək olmuşdur. ADU-da dəyərli müəllimlərimin mənə öyrətdikləri mənim iş fəaliyyətimdə çıraq rolunu oynamışdır, bu biliklər mənim peşəkar inkişafımda və qərar qəbul etmə proseslərimdə əvəzsiz bir təməl yaratmışdır. Lakin bunu xüsusi vurğulamaq lazımdır ki, sadəcə, universitet bilikləri ilə kifayətlənmək olmaz. Mən liderlik, idarəetmə və strategiya sahəsində müxtəlif kurs və təlimlərə qatılaraq, davamlı inkişafımı təmin etmişəm. Bu əlavə bilik və bacarıqlarım mənə millət vəkili kimi, müxtəlif beynəlxalq təşkilatlarda səmərəli fəaliyyət göstərməyə imkan verir, beynəlxalq əlaqələrin qurulmasında və ölkəmizi qlobal platformalarda təmsil etməkdə mənim üçün vacib rol oynayır.

Hazırda mütaliə etməyi sevirəm və daim öz üzərimdə çalışıram. Bilik və bacarıqlarımı hər zaman inkişaf etdirməyə can atıram. Mənim fikrimcə, əsas məqam daim öyrənmə qabiliyyətinə sahib olmaqdır. Bu səbəbdən, gənclərə də davamlı yeni biliklər əldə etməyi tövsiyə edirəm. Öyrənmə prosesi daim davam etməli və hər bir fərd üçün prioritet olmalıdır. Bu yanaşma həm şəxsi, həm də peşəkar inkişaf üçün böyük əhəmiyyət kəsb edir.

**- Hazırda universitetdə oxuyan tələbələrə və yeni məzunlara hansı məsləhətləri verərdiniz?**

- Çox istərdim ki, əziz gənclərimiz daim yeni biliklər öyrənməyə və bacarıqlarını artırmağa çalışsınlar. Müxtəlif təcrübə proqramlarına və layihələrə qoşulmaq gələcək kariyeralarına işıq tutacaq. Xarici dilləri öyrənmək və beynəlxalq təcrübə proqramlarında iştirak etmək isə onlar üçün qlobal imkanlar yaradacaq. Peşəkar əlaqələr qurmaq üçün müxtəlif tədbirlərə qatılmaq və kommunikasiya bacarıqlarınızı inkişaf etdirmək lazımdır. Bu, gələcəkdə onlar üçün olduqca faydalı ola bilər. Eyni zamanda sosial fəaliyyətlərdə və könüllü layihələrdə iştirak etməyi məsləhət görərdim. Bunun nəticəsi olaraq, onlar liderlik və komanda işində təcrübə qazanacaqlar. Nəhayət, məqsədləri dəqiq müəyyənləşdirməli və onlara çatmaq üçün səbirli olaraq, yorulmadan, əzmlə çalışmalıdırlar.

Dəyərli gənclərimiz atdıqları addımlarda dövlətimizin milli maraqlarını hər şeydən üstün tutmalıdırlar. Ümummilli Liderimiz Heydər Əliyevin də söylədiyi kimi, "Gənclərimizin əsas vəzifəsi özünü müstəqil Azərbaycan Respublikasının inkişafına həsr etməkdən, müstəqil Azərbaycan Respublikasının yaşamasına və əbədi olmasına həsr etməkdən ibarət olmalıdır". Gənclərimizin hər biri Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini qorumağa hazır olmalıdır. Onlar Azərbaycan tarixini və mədəniyyətini dərindən öyrənməli, bu bilikləri digər xalqlara tanıtmalıdır. Başqa sözlə desək, gənclərimiz, müstəqil Azərbaycanın gələcək liderləri kimi, ölkənin maraqlarını hər zaman ön planda tutmalıdırlar.

**Söhbətləşdi:**
**Sadiq ZAMAN**

# Xalq yazıçısı Kamal Abdullanın "Seçmələrin seçməsi - qranulalar" kitabının təqdimatı



Sentyabrın 25-də Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq yazıçısı Kamal Abdullanın "Seçmələrin seçməsi - qranulalar" adlı yeni kitabının imza günü və təqdimat mərasimi keçirilib. "Libraff" kitab mağazaları şəbəkəsinin Park Akademiya filialında həyata keçirilən tədbirdə bir çox görkəmli ziyalılar - tanınmış ictimai xadimlər, yazıçılar, ədəbiyyatşünas alimlər və oxucular iştirak ediblər.

Böyük maraqla qarşılanan təqdimat mərasimində, ilk öncə, "Seçmələrin seçməsi - qranulalar" kitabının müəllifi, akademik Kamal Abdulla söz alıb, nəşrin yazılma səbəblərindən danışıb. Xalq yazıçısı bildirib ki, indiyədək yazdığı əsərlərdən seçilmiş bir sıra qranula-cövhər sayıla biləcək məqamlar ayrı-ayrı şəkildə ilk dəfə bu kitabda toplanıb. Eyni zamanda, kitabda əhvalat və tərzə uyğun olaraq müəllifin sevdiyi yazıçı və şairlərin misraları, fikirləri də öz əksini tapıb:

"Günlərin bir günü illərdən bəri yazdığım şeirlərin, esselərin, pyeslərin, hekayə və romanların, elmi-publisistik məqalələrin hər birinin içində yer almış və bu gün də öz məzmunu ilə diqqətimi çəkən cümlələr, sanki, dil açıb mənə dedilər ki, bizim bir-birimizdən zaman və məkanca ayrılığımıza son qoy. Bizi bir-birimizin yanında yerləşdir. Onda biz tamamilə yeni bir cazibədə zühur edəcəyik".

Xalq yazıçısı bildirib ki, qranula, əsərin özəyini təşkil edən, artıq və lazımsız hissələrdən təmizlənmiş saf düşüncələri, mətnin cövhərini ifadə edir. Müəllif yeni kitabında məhz bu qranulalar vasitəsilə öz bədii dünyasını oxucuya daha aydın və qısa bir şəkildə çatdırmağı, yalnız əsərin cövhərinin saxlanılmasını qarşısına məqsəd qoyub:

"Bu kitabda yer alan qranulalar vaxtilə yazdığım mətnlərin hər birində müxtəlif əhvalın məhsulları kimi ortaya çıxmışdı. Onları bir-birindən




nəinki onilliklər, hətta tamamilə əks əhval-ruhiyyələr, səviyyələr ayırırdı. Həmçinin onları bir-birindən müxtəlif məqsəd və niyyətlər də fərqləndirirdi. İndi isə onlar bir-birinin yanında doğma bacı-qardaş kimidirlər. Mən bir daha inandım ki, ömrüm boyu sahəsindən, janrından, məzmunundan asılı olmayaraq bir əsər yazmışam. İndi o əsərin "ən ləyaqətli nümayəndələri" bu kitabda bir-birinin yanında yer alıb. Mənə elə gəlir ki, bu qranulalar bir-birinin yanında dururkən təkcə özlərini deyil, aid olduqları mətnləri də bir-birilə yaxın edə biliblər. Əgər bu qranulalar oxucunu yenidən aid olduqları ilkin mətnlərə doğru yönəldə biləcəksə, demək, məqsədə nail olunmuşdur".

Təqdimat mərasimində çıxış edən akademik Vaqif Abbasov, Xalq şairi Ramiz Rövşən, millət vəkili Fazil Mustafa, akademik Muxtar İmanov, professor Cəlil Nağıyev Xalq yazıçısı Kamal Abdullanın Azərbaycan ədəbiyyatına verdiyi töhfələrdən, təqdim edilən kitabın bədii məziyyətlərindən danışıblar.

Bildirilib ki, Kamal Abdulla oxucuların onun yaradıcılığını daha dərindən dərk etmələri üçün onilliklər ərzində yazdığı əsərlərin ən dəyərli hissələrini yeni kitabda bir araya gətirərək cövhər kimi təqdim edib. Bu qranulalar bədii əsərlərin içindəki əsas məqamları, mətnin ən saf və qiymətli hissələrini təşkil edir. Beləliklə, Kamal Abdulla illərlə müxtəlif janrlarda qələmə aldığı mətnlərin hər birindən ən vacib hissələri bir araya gətirərək yeni və bütöv bir əsər yaratmışdır. Məhz bu cəhətlərinə görə, "Seçmələrin seçməsi - qranulalar" kitabı Kamal Abdulla yaradıcılığının məğzini ifadə edən bütöv bir əsər kimi son dərəcə qiymətlidir. Kitabda təqdim olunan qranulalar fərqli janrlarda və mövzularda olsa da, bir araya gəldikdə yeni bir cazibə və mənəvi bütövlük yaradır.

Çıxış edənlər vurğulayıblar ki, yeni nəşr seçilmiş incilər toplusu olmaqla yanaşı, eyni zamanda, yazıçının geniş ədəbi dünyasının incəliklərinə işıq salır. Nəticə olaraq, "Seçmələrin seçməsi-qranulalar" kitabı Azərbaycan ədəbiyyatında yeni bir mərhələni təmsil edir. Bu kitab Azərbaycan ədəbiyyatının ən gözəl incilərindən biri kimi yaddaşlarda qalacaq. Həmçinin oxucular üçün bir çox yeni suallar doğuracaq və onları fəlsəfi düşüncələrə, mənəvi axtarışlara sövq edəcək.

Nəşrin redaktoru, dosent Maral Yaqubova mülahizələrini bölüşərkən kitabın Azərbaycan ədəbiyyatında unikal layihə olduğunu bildirdi. Qeyd olundu ki, Kamal Abdulla yaradıcılığına yeni baxış bucağı bəxş edən "Seçmələrin seçməsi-qranulalar" kitabı ədəbiyyatımızın gələcəyinə işıq tutacaq orijinal bir sənət incisi kimi yaddaşlarda qalacaq.

Təqdimat mərasimində Azərbaycan Respublikasının Milli Qəhrəmanı Mübariz İbrahimov adına Biləsuvar Bağça-Məktəb-Lisey Təhsil Kompleksinin şagirdlərinin Kamal Abdullanın yaradıcılığından seçmələr səsləndirməsi tədbirə xüsusi rəng qatdı. Gənc nəslin nümayəndələrinin yazıçının əsərlərini dərindən mənimsəməsi və yüksək səviyyədə ifa etməsi Kamal Abdulla yaradıcılığının oxucular tərəfindən nə qədər çox sevildiyini bir daha təsdiqlədi.

Tədbirin sonunda Xalq yazıçısı Kamal Abdulla hər kəsə təşəkkürünü bildirərək, yeni kitabı oxucular üçün imzaladı.

Qeyd edək ki, "Everest" nəşriyyat evində nəfis şəkildə çap olunan kitab geniş oxucu auditoriyası üçün nəzərdə tutulub. Kitabın redaktorları akademik Muxtar Kazımoğlu və tənqidçi Maral Yaqubovadır. Rəyçilər Qismət Rüstəmov, Cavid Zeynallı və Toğrul Mehdidir. Müəllifi kitabı yazmağa ruhlandıran imzalar isə Xalq şairi Ramiz Rövşən, akademik Rafiq Əliyev, Nazim Müzəffərli və Fərhad Təhməzlidir.

**Sadiq ZAMAN,**
**filologiya üzrə fəlsəfə doktoru**

# AZƏRBAYCANA XARİCDƏN BAXIŞ

Məlumdur ki, informasiya bolluğu və informasiya əsrinin gətirdiyi zənginlik insanların özünüinkişafı, dünyaduyumunun və dünyagörüşünün formalaşması, elmi tərəqqi və s. baxımından mütərəqqi hal hesab edilir. Diqqət yetirilməli olan digər bir məqam isə zəngin informasiya resurslarından zəruri və əhəmiyyətli olanı seçmək, təhlil etmək və cəmiyyətə ötürmək ilə bağlıdır. Dövlət müstəqilliyini bərpa etdikdən sonra çox da asan olmayan inkişaf yolu keçmiş, Ermənistanın işğalı altında olan əraziləri azad etmək üçün davamlı iş aparmış, siyasi, iqtisadi və sosial sahədə sistem xarakterli islahatlar aparmış və milli-mənəvi dəyərləri qorumaq məqsədilə kompleks tədbirlər reallaşdırmış Azərbaycan Respublikası haqqında istər ölkə daxilində, istərsə də onun hüdudlarından kənarda müxtəlif məzmunlu və xarakterli informasiya yayılmışdır. Bu informasiyanın bir hissəsi respublikada baş verən hadisələri, cərəyan edən prosesləri obyektiv şəkildə özündə əks etdirdiyi halda, digər hissəsi reallıqdan uzaq, qeyri-obyektiv və qərəzli mahiyyət kəsb edir. Şübhəsiz ki, həqiqətlərin təhrif olunduğu informasiyanı sadəcə diqqətə almamaq və ona reaksiya verməmək, dünyada informasiya müharibəsinin getdikcə dərinləşdiyi bir zamanda kifayət qədər təhlükəli hal olub, xalqın və dövlətin nüfuzuna, beynəlxalq əlaqələrinə və daxili sabitliyinə ziyan vura bilər. Yəni dezinformasiyanın qarşısını almağın ən səmərəli üsulu həqiqi, reallığı adekvat əks etdirən informasiyanı cəmiyyətə çatdırmaqdan ibarətdir. Bu baxımdan, "Müstəqillik dövründə ingilisdilli mətbuatda Azərbaycan obrazı (1993-2003)" kitabının hazırlanması və işıq üzü görməsi böyük əhəmiyyətə malikdir.

"Müstəqillik dövründə ingilsdilli mətbuatda Azərbaycan obrazı (1993-2003)" kitabı bir sıra müsbət məziyyəti ilə diqqəti cəlb edir. Hər şeydən əvvəl bu nəşr mahiyyət etibarilə Azərbaycanın ictimai-siyasi düşüncə tərzinin formalaşmasında xüsusi əhəmiyyət kəsb edir. Kitabın hazırlanmasında yaxından rəhbərlik edən və bu layihənin ideya rəhbəri olan akademik Kamal Abdullayev ərsəyə gəlmiş bu kitab haqqında qeyd etmişdir ki, "universitetimizdə diqqəti cəlb edən maraqlı layihələrdən biri də 1993-2003-cü illərdə ilk müstəqillik dövründə ölkəmizlə bağlı xarici ölkələrdə ingilis dilində yazılan məqalələrin tərcümə edilib şərhlərlə çap edilməsidir. Bu dövrdə müxtəlif ölkələrdə Azərbaycana münasibət eyni olmayıb. Azərbaycanın başının üstündə qara buludlar əskik deyildi. Qara buludların ortaya çıxıb Azərbaycana təzyiq göstərməsinin bir səbəbkarı da o qəzetlər idi ki, qərəzli yazılar çap edirdilər. İşimizin bir hissəsi də ondan ibarət oldu ki, universitetdə tərcüməçi və jurnalistləri bir yerə yığdıq. Onlar ilk müstəqillik illərində, Ulu Öndərin hakimiyyətdə olduğu vaxt ingilisdilli mətbuatda Azərbaycan obrazı haqqında təəssürat yaradan yazıları tərcümə edib bir kitaba topladılar. Azərbaycan Amerikadan, İngiltərədən, Hindistandan, müxtəlif ölkələrdən necə görünürdü?! Kitab bu barədə idi. … biz o kitabı Ulu Öndərin 100 illiyinə həsr etmişik".

Kitaba daxil edilən məqalələrin seçilməsi müəyyən metodika üzrə aparılmışdır. Azərbaycanın siyasi-ictimai, sosial-iqtisadi və mədəni-humanitar həyatı ilə bağlı məlumatları əks etdirən müxtəlif səpkili və fərqli nöqteyi-nəzərdən yazılmış məqalələr kitabda yer almışdır. Bu da, bir tərəfdən, 1993-2003-cü illərdə Azərbaycanın daxili və xarici siyasət və ona yanaşmalar, digər tərəfdən isə, qeyd olunan illərdə dünyada jurnalistikanın vəziyyəti barədə müəyyən təsəffür yaratmağa imkan verir. Seçilmiş və Azərbaycan dilinə tərcümə edilmiş həmin məqalələrin işıq üzü gördüyü ölkələrin coğrafiyası da kifayət qədər genişdir. Bu baxımdan, ABŞ, Kanada, İngiltərə, Rusiya, Avstraliya və s. ölkələri qeyd etmək olar. Səhifələrində Azərbaycan haqqında məlumatlara yer vermiş ingilisdilli mətbuat orqanlarının siyahısı da kifayət qədər rəngarəngdir. Qeyd olunan mətbuat orqanlarına misal olaraq "The Gazette", "The Times", "The Globe & Mail", "The Sydney Morning Herald", "The Moscow times", "The Washington Post", "Sunday Times", "The New York Times", "The Guardian", "The Economist", "The Daily Herald" və s. göstərmək olar.

Oxucunun diqqətinə çatdırılan məqalələr, artıq qeyd olunduğu kimi, müxtəlif mövzulara həsr olunmuşdur. Dövrün tələbinə və reallıqlarına uyğun olaraq, məqalələrin əhəmiyyətli hissəsi Ermənistan-Azərbaycan münaqişəsi və Azərbaycanın neft-qaz sənayesi və enerji siyasəti ilə bağlı mövzuları əhatə edir. Bundan başqa, məqalə müəllifləri ölkənin siyasi həyatı, iqtisadi vəziyyəti, tarixi və mədəniyyəti ilə bağlı mövzulara da müraciət etmişlər.

Məqalələrin seçilməsinə selektiv yanaşılmamışdır, yəni hadisə və proseslərin obyektiv şəkildə işıqlandırıldığı məqalələrlə yanaşı, qeyri-obyektiv mövqedən yazılan məqalələrə də kitabda yer verilmişdir. Tərcümə prosesində sonuncuların məzmununa bu və ya digər formada müdaxilə olunmamış, məqsədli ixtisarlar aparılmamışdır. Onların əsli ilə tərcüməsi arasında adekvatlıq maksimum qorunmuşdur. Bəzi məqalələrdə müəlliflərin bəhs edilən hadisə və proseslərlə əlaqəli məqsədli şəkildə və ya məlumatsızlıqdan yol verdikləri qeyri dəqiqliklər, təhriflər v ə s. barədə kitabın "Qeydlər" bölməsində şərhlər verilmişdir.

İngilisdilli mətbuat dünya mətbuat tarixində özünəməxsus yer tutur, onun kökləri əsrlər əvvələ gedib çıxır və müasir dövrdə də ən geniş oxucu auditoriyasına malikdir. Dünya arenasında Azərbaycanın siyasi-ictimai fikrinin istiqamətini müəyyən etmək, qonşu xalqın işğalçılıq siyasətinin mahiyyətini başa düşmək, proseslərin kifayət qədər ziddiyyətli və mürəkkəb bir şəraitdə getdiyini bilmək üçün xarici mətbuata müraciət olunması, onun oxucuya çatdırdığı informasiyaya münasibətin bildirilməsi ölkəmizin gələcək inkişafının təmin etmək baxımından böyük əhəmiyyət daşıyır. Bu səbəbdən də xarici mətbuat orqanlarında, o cümlədən ingilisdilli mətbuatda Azərbaycan haqqında verilən məlumatları üzə çıxarmaq və onları ictimaiyyətə təqdim etmək bizim fəaliyyətimizin əsas qayəsini təşkil edir. Mətbuatın ilk növbədə sosial dəyərlər və inamları ifadə və təbliğ edən vasitə olması bu işin əhəmiyyətini daha da artırır. Bütün bunlara əsaslanaraq, kitabın "ön söz"ündə də qeyd edildiyi kimi, Azərbaycan haqqında məqalələrin ingilis dilindən tərcümə olunmuş variantlarının yer aldığı "Müstəqillik dövründə ingilisdilli mətbuatda Azərbaycan obrazı (1993-2003)" kitabını siyasətçilər, tarixçilər, iqtisadçılar, regionşünaslar, diplomatlar və digər mütəxəssislər üçün son dərəcə faydalı vəsait kimi dəyərləndirmək olar.

Kitabda Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı olan məqalələr bir neçə aspektdən diqqəti cəlb edir. Ümumilikdə bu məqalələrdə azərbaycanlılar və ermənilər arasında münasibətlər, münaqişənin tarixi, kənar qüvvələrin proseslərə təsiri və maraqları, hərbi əməliyyatların törətdiyi faciələr, qaçqın əhalinin iztirabları və s. geniş şərh olunur. Bəzi məqalələrdə Qarabağın tarixi Azərbaycan torpağı olması sübhə altına alınır, regionun guya 1923-cü ildə İ.V. Stalin tərəfindən Azərbaycana verildiyi, azərbaycanlıların burada yaşayan erməniləri təziq altında saxladıqları iddia olunur. Tarixi faktlar və real hadisələr isə, çox vaxt erməni diasporunun və onunla bağlı olan dairələrin sifarişini yerinə yetirən jurnalistlərin təxəyyülünün saxta məhsulu olan bu məqalələrdə söylənilənlərin tam əksini sübut edir. Ümumilikdə, münaqişə haqqında məlumat verən müəlliflərin çoxunun ən böyük yanlışlığı hadisələrə səbəb-nəticə kontekstində yanaşmamasından, işğala məruz qalan Azərbaycan ilə işğalçı Ermənistanı eyni müstəviyə qoymasından qaynaqlanır. Qeyd olunan saxta məlumatların əsassız olduğu təkcə kitabda verilən şərhlərlə sübut olunmur, onlar xalqımızın şanlı qələbəsi ilə nəticələnən 44 günlük müharibə zamanı Ali Baş Komandan, Prezident İlham Əliyevin xarici mətbuat orqanlarına mütəmadi olaraq verdiyi müsahibələrdə irəli sürülən faktlar və arqumentlərlə də alt-üst edilmişdir. Ölkə başçısının Dağlıq Qarabağ problemi, Azərbaycanın geosiyasi rolu, iqtisadiyyatı və daxili siyasi prosesləri ilə bağlı suallara verdiyi cavablar dünyanın yüzlərlə KİV-i tərəfindən yayılmış, bu da Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında müstəsna rol oynamışdır.

Azərbaycanın neft strategiyası məqalə müəlliflərinin diqqət mərkəzində saxladıqları ikinci əsas məsələdir. Bu barədə yazılan məqalələrdə Azərbaycanın neft-qaz sərvətləri, xarici şirkətlərin bu sərvətlərə göstərdikləri maraq, onların öz aralarındakı rəqabət, maraqlı ölkələrin paytaxtlarında aparılan danışıqlar və nəhayət, Heydər Əliyevin xarici şirkətlərlə aparılan danışıqlarda milli maraqların qorunmasına yönələn fəaliyyəti, "Əsrin müqaviləsi"nin imzalanması və əsas ixrac boru kəməri marşrutunun müəyyənləşdirilməsi ilə bağlı geniş çeşidli informasiya yer almışdır.

Kitabda Azərbaycan mədəniyyətinin bu və ya digər sahələrinə aid məqalələr də diqqəti cəlb edir. Müstəqillik illərində Heydər Əliyevin hakimiyyətə qayıdışının ölkənin mədəni həyatına da yenilik gətirməsi ingilisdilli mətbuat nümayəndələri tərəfindən də diqqətə çatdırılır. Bu məqalələrlə tanış olarkən bir daha əmin oluruq ki, Ulu Öndər xalqın inkişafı prosesində tarixi-milli-mədəni köklərə sədaqət, qarşılıqlı anlaşma, milli birlik, yaradıcı münasibət, müasirlik, qanunun aliliyinə hörmət və riayət kimi əsas meyarlardan ibarət sistem qurmuşdur. Bu sistem daxilində mədəniyyətin təsir dairəsinin genişlənməsi dövrün xarakterik xüsusiyyətinə çevrilmişdir. Heydər Əliyev mədəniyyəti xalqın ən böyük sərvəti hesab edirdi. Onun hakimiyyəti dövründə mədəniyyətə, milli-mənəvi dəyərlərə münasibət köklü şəkildə dəyişərək, ölkəmizin mədəni həyatında yeni dövrün başlanğıcını qoymuşdur.

Ümumilikdə "Müstəqillik dövründə ingilisdilli mətbuatda Azərbaycan obrazı (1993-2003)" kitabı Heydər Əliyevin 100 illiyinə bir töhfə olmaqla yanaşı, Azərbaycan tarixinin 1993-2003-cü illər dövrünü öyrənmək üçün əhəmiyyətli bir mənbədir.

**Aqşin Rüstəmov,**
**tarix üzrə fəlsəfə doktoru,**
**"Azərbaycanşünaslıq" Elmi Mərkəzinin müdiri**



# ADU-ya ən yüksək balla qəbul olan tələbələrimiz

*Beynəlxalq reytinq cədvəllərində (QS rankings, Times Higher Education) dünyanın ən nüfuzlu universitetləri sırasına daxil olan Azərbaycan Dillər Universitetinin 2024/2025-ci tədris ilində bakalavriat pilləsi üzrə qəbul planı 99,9% dolub. Yeni tədris ilində Azərbaycan Dillər Universitetinə qəbul nəticələrinə əsasən 63 tələbə 600 baldan yüksək, 556 tələbə 500 baldan yüksək, 428 tələbə 400 baldan yüksək bal toplayıb. Tələbə adını qazanan gənclərimiz arasında dörd nəfər isə qəbul imtahanlarında 650-dən yüksək bal toplayıb.*

## Ayşə Hüseynova - 680,2 bal



Mən - Ayşə Cümşəddin qızı Hüseynova 24.02.2007-ci il tarixində Sumqayıt şəhərində anadan olmuşam. 2013-cü il Laçın rayon Çıraqlı kənd tam orta məktəbində təhsil almağa başlamışam.

Təhsil aldığım müddətdə məktəbdə keçirilən bütün tədbir və müsabiqələrdə fəallıq göstərmişəm, dərslərimdə uğurlu olmuşam. Tədris olunan fənlərin hər birini sevərək oxumuşam. Ancaq dillərə, xüsusilə də, ingilis dilinə marağım böyük olub. Bu marağın yaradıcısı isə dəyərli ingilis dili müəllimlərim olmuşdur. Onlar daim bizə yeni məlumatlar öyrətməyə çalışmış və bizə əsl pedaqoq kimi yanaşmışdılar. Bu səbəbdən hələ aşağı siniflərdən ingilis dili müəllimi olmağı qarşıma məqsəd qoymuşdum və öz müəllimlərim kimi savadlı dünyagörüşlü bir pedaqoq olmaq istəyirdim.

Məktəb illərində, eyni zamanda, ədəbiyyata da xüsusi marağım olub. Muxtəlif yazıçıların, şairlərin həyat və yaradıcılığı daim məni maraqlandırıb və əziz Azərbaycan dili və ədəbiyyatı müəllimim sayəsində bu barədə müxtəlif kitablar oxumuş və onlarla müzakirələr aparmışam. Eyni zamanda, 9-cu sinifdə keçirilmiş Buraxılış imtahanında 284 bal yığaraq məktəbimiz üzrə ən yüksək nəticəni əldə etmişəm. Bu və digər uğurlarımda məktəb müəllimlərimim üzərimdə əziyyəti çoxdur, onların hər birinə öz minnətdarlığımı bildirirəm.

Dəyərli müəllimlərim və məni dəstəkləyən valideynlərimin motivasiyaverici fikirləri daim məndə yüksək ideallar yaradıb, onların mənə olan güvəni məni oxumağa daha da ruhlandırıb. Bunun nəticəsidir ki, 11-ci sinifdə Dövlət İmtahan Mərkəzinin keçirdiyi buraxılış imtahanında 295,8 bal topladım, ardınca blok imtahanında 384,4 bal yığaraq yenidən yüksək nəticə göstərdim. Bu mənim ailəm üçün çox sevindirici an idi, çünki artıq uşaqlıq xəyalım olan İngilis dili müəllimliyi ixtisasına qəbul olmağa daha yaxın idim.

Beləliklə, ixtisas seçimi yetişdi, əlbəttə ki, ilk olaraq Azərbaycan Dillər Universitetinin İngilis dili müəllimliyi ixtisasını yazdım. Bir müddət sonra nəticələr elan olundu və çox sevindim, hətta sevidiyimdən ağladım, çünki illərdi uğrunda əziyyət çəkdiyim, çalışdığım məqsədimə nail olmuşdum. Ardınca universitetin portalından qeydiyyatdan keçdim.

Sonra Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla məni və 650 baldan yuxarı bal toplamış digər tələbələri görüşə çağırdı. Görüş çox maraqlı keçdi və rektorumuz bizə qayğı ilə yanaşdı, bizim universitetdən olan gözləntilərimizi soruşdu, maraqlı söhbətlər apardı. Ardınca hədiyyələr təqdim etdi, hədiyyələr içərisində ən dəyərlisi Kamal müəllimin kitabı oldu. Kitab olduqca maraqlı və dərin mənalı idi. Eyni zamanda, universitet heyətinin bir qismi ilə də tanış oldum, bu da ayrıca xoş bir an idi.

Hazırda artıq iki aya yaxındır ki, Azərbaycan Dillər Universitetində tələbəyəm və düşünürəm ki, dəyərli rektorumuz başda olmaqla universitet müəllimlərimizin sayəsində çox gözəl bir tələbəlik həyatım olacaq.

## Xalidə Əliyeva - 667,1 bal



Mən - Xalidə Asif qızı Əliyeva 2007-ci ildə Qazax şəhərində anadan olmuşam. 2013-cü ildə Qazax rayonu, Kosalar kənd tam orta məktəbinə daxil olmuşam, 2024-cü ildə həmin məktəbi fərqlənmə attestatları ilə bitirmişəm. Bu il qəbul imtahanlarında 667,1 bal toplayaraq Azərbaycan Dillər Universitetinin ingilis dili müəllimliyi ixtisasına qəbul olmuşam.

İngilis dilinə uşaqlıqdan xüsusi marağım olub. Hələ ibtidai sinifdə təhsil alarkən bu ixtisası seçmək qərarına gəlmişdim. Müəllimlərimin bu fənni mənə sevdirməsi ilə, həmçinin, anamın dəstəyilə böyüdükcə həm ingilis dili fənninə, həm də müəllimlik peşəsinə rəğbətim artıb. Müəllimlik peşəsi, mənim fikrimcə, yer üzündə ən şərəfli peşədir. Bunun üçün də tərəddüd etmədən yüksək balla ingilis dili müəllimliyi ixtisasını seçdim. Bəs nə üçün Azərbaycan Dillər Universitetini seçdim?

Öncəliklə dil dedikdə ağla ilk gələn universitet Azərbaycan Dillər Universitetidir. Eyni zamanda, Azərbaycan Dillər Universitetinin QS reytinq cədvəlində yer alması mənim xüsusilə marağımı cəlb edib. Universitetə qəbul olduqdan sonra isə istər hörmətli rektorumuz Kamal müəllimin bizi - universitetə yüksək balla qəbul olmuş tələbələri çox yaxşı qarşılaması, istərsə də universitetimizdəki dərslərin keyfiyyəti, müəllimlərimizin diqqəti seçimimin nə qədər doğru olduğunu sübut etmiş oldu.

Gələcəklə bağlı məqsədim universiteti yüksək göstəricilər ilə bitirib, daha sonra xaricdə təhsil alaraq ölkəmizin savadlı, tanınmış müəllimlərindən biri olmaqdır.

## Şahzadə Vəliyeva - 654,2 bal



Mən - Şahzadə Vəliyeva 06.10.2006 tarixində Şəmkir rayonunun Aşağı Seyfəli kəndində anadan olmuşam. 2013-cü ildə Şəmkir rayonu, Abbaslı kəndi 2 saylı tam orta məktəbində təhsil almağa başlamışam. 2024-cü ildə həmin məktəbdən məzun olmuşam. Qəbul imtahanlarında 654,2 bal toplayaraq Azərbaycan Dillər Universitetinin İngilis dili müəllimliyi ixtisasına qəbul olmuşam.

Sözsüz ki, bütün uğurlarıma görə, ilk növbədə, valideynlərimə və məktəbimə borcluyam. Düzünü desəm, uşaq vaxtı oxumağa elə də çox həvəsim yox idi, bu həvəsi məndə, ilk növbədə, anam yaratdı. Həm ailəm, həm də məktəb müəllimlərim məndə oxumağa həvəs yaratdılar.

Qeyd edim ki, atam Vəliyev Rauf kənd təsərrüfatı ilə məşğul olur. Anam Gülmirə Yusubova evdar xanımdır. Qardaşım Qənbər Vəliyev 10-cu sinif şagirdi, kiçik qardaşım Sultan Vəliyev isə 7-ci sinif şagirdidir.

Məktəb illəri haqqında çox danışmaq olar. Müəllimlərim məni sevirdi və mən də öz məsuliyyətimi dərk edib dərslərdə fəallıq göstərirdim. Mənim fikrimcə, bir şagirdin, ilk növbədə, öz məsuliyyətini dərk etməsi onu uğura aparan yollardan biridir.

Məktəb illərində heç bir problemim yox idi, müəllimlərimi çox sevirdim və onlar da məni çox sevirdilər. Fənlərə gəlincə isə ən çox sevdiyim fənlər ingilis dili və riyaziyyat idi, məni o fənlərə olan marağım xüsusi idi. Fənnindən asılı olmayaraq, bütün məktəb müəllimlərim məni daima həvəsləndirirdilər və onların hər birinə sonsuz təşəkkürümü bildirirəm.

11-ci sinfə qədər, sadəcə, məktəb müəllimlərim mənimlə məşğul olub. 11-ci sinifdə isə əlavə məşğələlərə getdim və bunun da, təbii ki, çox böyük köməyi oldu. Həm hazırlıq müəllimlərim, həm də məktəb müəllimlərim çox savadlı idilər və hər birinin üzərimdə əməyi əvəzsizdir.

İngilis dili müəllimi olmaq mənim uşaqlıq arzum idi, düzdür, sonralar çox fərqli xəyallarım da oldu, amma yenə də bu peşəni sevdiyimə görə əvvəlki arzumun üstündə dayandım.

Əslində ailəm məni heç bir peşəyə məcbur etmirdi, hansı peşəni seçməyimdən asılı olmayaraq həmişə arxamda idi və mənə, bəlkə də, ən böyük gücü məhz bu hiss verirdi. Və axır ki, istəyimə nail olub universitetə qəbul oldum. Gələcək məqsədim peşəmi tam mənimsəyib, ixtisasıma layiqli kadr olmaqdır. İxtisasıma uyğun ən gözəl və düzgün təhsil ADU-da alacağıma əminəm.

Bu universiteti seçməyimə heç peşman deyiləm, çünki, həqiqətən də, çox gözəl bir universitetdir, müəllimlərin isə hər biri çox savadlıdır və mən bu müəllimlərdən dərs aldığıma görə, həqiqətən, çox şanslıyam. Tələbə yoldaşlarım isə hər biri çox səmimidir və inanıram ki, biz birlikdə çox gözəl işlər görəcəyik.

Universitetə yüksək balla qəbul olduğuma görə hörmətli rektorumuz Kamal Abdulla bir neçə tələbə ilə görüş təşkil etmişdi. Görüş zamanı rektor məndə çox gözəl bir təəssürat yaratdı. Xüsusilə də görüşdə iştirak edəndə mən başa düşdüm ki, bu universitet savadlı tələbələrə, həqiqətən də, çox böyük dəyər verir və onların da dəyəri əvəzolunmaz idi.

Universitetin dərslərinə gəlincə isə keçirilən dərslər maraqlıdır, müəllimlər isə insanda fərqli bir aura yaradır və təlim üsulları da çox yaxşıdır.

Mən həm gələcək tələbəlik illərim, həm də gələcək fəaliyyətim haqqında müsbət düşünürəm və inanıram ki, bu universitetin mənim savadlı bir kadr kimi yetişməyimdə çox böyük rolu olacaq.

## Dünya Əsədova - 652,6 bal



Mən - Əsədova Dünya Mehman qızı 4 fevral 2007-ci ildə Oğuz rayonu, Padar kəndində anadan olmuşam. 2013-cü ildə İsmayıllı rayon 1 nömrəli tam orta məktəbin 1-ci sinfinə daxil olmuşam. 2024-cü ildə Sumqayıt şəhər Z.S.Hacıyev adına 17 nömrəli tam orta məktəbi bitirmişəm. 2023-2024-cü tədris ilində keçirilmiş buraxılış və blok imtahanlarından birlikdə 652,6 bal toplamışam. Bu uğurda özümün səyi, çalışma əzmi ilə yanaşı, valideyn və müəllimlərimin rolu danılmazdır. Təhsil aldığım məktəbdə sinif rəhbərimiz Məmmədova Arzu müəllimə bu yolda hər zaman mənə dəstək olmuşdur. O, mənə müəllimlik ixtisasını sevdirmişdir.

Mən 2024-cü ildə Azərbaycan Dillər Universitetinin Xarici dil (ingilis) müəllimliyi ixtisasına qəbul oldum. Bu, mənim uşaqlıq arzum idi və mən xoşbəxtəm ki, arzuma çatdım.

Universitetimizin rektoru, Xalq yazıçısı Kamal Abdulla bizimlə görüş keçirmişdir. Bu görüşdə o, bizə öz kitabını hədiyyə etmişdi. Bununla yanaşı, o, bizi səhər yeməyinə dəvət etdi, bu görüşdə Kamal müəllim bizimlə yaxından tanış oldu. Görüş və hədiyyələr üçün Kamal müəllimə minnətdaram.

Artıq iki aydır ki, universitetə gedirəm. Bu müddət ərzində mən yeni biliklər, dostlar əldə etdim. İxtisas fənni müəllimlərim mənə İngilis dilinin bütün incəliklərini aydın şəkildə başa salırlar, gələcəkdə onlar kimi savadlı müəllimə olmağı arzulayıram…

# “Qeyri-səlis məntiq və nitq-dil” kitabının təqdimat mərasimi



Oktyabrın 29-da M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında Xalq yazıçısı, akademik Kamal Abdulla və AMEA-nın müxbir üzvü, professor Rafiq Əliyevin müəllifi olduqları “Qeyri-səlis məntiq və nitq-dil” kitabının təqdimat mərasimi keçirilib.

Milli Kitabxananın direktoru, professor Kərim Tahirov tədbir iştirakçılarını salamlayaraq, “Qeyri-səlis məntiq və dil-nitq” kitabının elmi əhəmiyyətindən söz açıb, yeni nəşrin elmi ictimaiyyət və ziyalılar tərəfindən böyük maraqla qarşılandığını vurğulayıb.

Tədbirin aparıcısı, professor Qorxmaz İmanov bildirib ki, akademik Kamal Abdulla və professor Rafiq Əliyev son illər qeyri-səlis məntiq nəzəriyyəsinin daha da dərinliklərinə enərək, bu nəzəriyyəni ictimai elm sahələrinə uğurla tətbiq edirlər. Onlar dünya şöhrətli azərbaycanlı alim Lütfi Zadənin məşhur qeyri-səlis məntiq nəzəriyyəsini Dədə Qorqud boylarına tətbiq edərək son dərəcə dəyərli əsər - “Kitabi-Dədə Qorqud” və qeyri-səlis məntiq” kitabını yazıblar. Bu yaxınlarda isə Kamal Abdulla və Rafiq Əliyevin qeyri-səlis məntiq nəzəriyyəsini sosial elmlərə tətbiq edən yeni nəşri - “Qeyri-səlis məntiq və nitq-dil” adlı kitabı çapdan çıxıb. Müəlliflər qey-




ri-səlis məntiqi dil və nitqə tətbiq edərək, müxtəlif fərqli yanaşmaları cəmləyən intellektual bir araşdırma ortaya qoyublar.

Kitabın müəlliflərindən olan professor Rafiq Əliyev qeyri-səlis məntiqin sosial elmlərə tətbiqinin əhəmiyyətindən söz açıb, bu nəzəriyyənin dilin çoxqatlı məzmununu daha dəqiq ifadə etməyə imkan verdiyini bildirib: “Bu kitab, qeyri-səlis məntiqin klassik məntiq çərçivəsindən çıxaraq, dilin təbii axarında necə təzahür etdiyini göstərir. Biz dilin çoxmənalılığını araşdırarkən, onun yalnız tək anlamlı deyil, geniş perspektivlər yaratdığını dərk etdik. Bu yanaşma Azərbaycan elmi üçün yeni bir addımdır”.

Akademik Kamal Abdulla kitabın yazılma prosesindən bəhs edərək qeyd edib ki, qeyri-səlis məntiq nəzəriyyəsinin dilin özünəməxsus çoxmənalılıq və qeyri-xətti xüsusiyyətləri ilə uzlaşdırılması müasir dilçilik elmi üçün yeni üfüqlər açır: “Biz bu kitabda qeyri-səlis məntiq nəzəriyyəsini dilə tətbiqi ilə onun qeyri-xətti məqamlarını, çoxmənalılıq xüsusiyyətlərini əhatəli şəkildə izah etməyə çalışmışıq. Bu kitab sosial elmlərdə yeni bir dövr açmaq potensialına malikdir”.

Təqdimat mərasimində ADNSU-nun prorektoru, professor Lətafət Qardaşova, Türkiyə Cümhuriyyəti Dil və Sistem Fondunun sədri Burak Eke, ADNSU-nun rektoru Vazeh Əskərov, Xalq şairi Ramiz Rövşən, Əməkdar jurnalist Elmira Axundova, tanınmış ictimai xadim Hacan Hacıyev, professor Qəzənfər Paşayev, akademik Muxtar İmanov və professor İsmayıl Məmmədov çıxış ediblər. Natiqlər bildiriblər ki, təqdim olunan yeni kitab həm Azərbaycan dilçiliyi, həm də elmin digər sahələri üçün fundamental bir töhfədir. Bu əsər, Azərbaycanın elm tarixində bir çox intellektual başlanğıcların mənbəyi ola bilər.

Qeyd edilib ki, qeyri-səlis məntiq nəzəriyyəsinin dilə tətbiqi Azərbaycan elmi tarixində unikal bir hadisədir və bu, elmi ictimaiyyətə geniş imkanlar və yeni tədqiqat sahələri, perspektivlər açır. Dil və nitq arasındakı əlaqələrin belə incəliklə öyrənilməsi, dilçiliyin gələcək inkişafında mühüm rol oynayacaq. Bu fundamental tədqiqat təkcə elmi dairələrdə deyil, həm də geniş oxucu kütləsi tərəfindən böyük rəğbətlə qarşılanacaq, gələcək nəsillərə zəngin miras qoyacaq.

**Sadiq ZAMAN**

# “A grammar of contemporary Azerbaijani” dərs vəsaitinin təqdimatı

Bakı Kitab Mərkəzində “A grammar of contemporary Azerbaijani” (“Müasir Azərbaycan dilinin qrammatikası”) adlı dərs vəsaitinin təqdimatı keçirilib.

AZƏRTAC-ın bu barədə yazdığı məlumatda bildirilir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva, eləcə də Azərbaycanın tanınmış elm, mədəniyyət və ictimaiyyət xadimləri iştirak ediblər.

Azərbaycan Respublikasının Diaspora İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə nəşr edilmiş kitabın müəllifləri dilçi-alim Səbinə Əliyeva və Azərbaycan Dillər Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru Jalə Qəribovadır.

Kitabın təqdimatından əvvəl AZƏRTAC-a müsahibə verən dilçi-alim Səbinə Əliyeva dərsliyin ingilisdili insanların Azərbaycan dilini öyrənmək üçün bütün qrammatik kateqoriyaları və konstruksiyaları əhatə etdiyini söyləyib. “Kitab ingilis dilində qələmə alınıb. Hər bir qrammatik kateqoriya, struktura aid nümunələr həm Azərbaycan, həm də ingilis dilində verilib. Kitabın sonunda bütün qrammatik kateqoriyaları əks etdirən cədvəllər təqdim olunub. Dərslik təxminən dörd il ərzində yazılıb. Bu kitabın ərsəyə gəlməsində 20 ilə yaxın müddətdə bizim əcnəbilərə keçdiyimiz dərslər zamanı qazanılmış təcrübə yardımçı olub. Prezident İlham Əliyevin Azərbaycan dilinin inkişafı və təbliği məqsədilə imzaladığı sənədlərə cavab olaraq biz də bu işə kiçik töhfə verməyə çalışdıq”, - deyə o qeyd edib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Diaspora İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov müəlliflərin bu işə 5 ilə yaxındır başladıqlarını diqqətə çatdırıb. Xaricdə yaşayan həmvətənlərimizin Azərbaycan dilinin qorunub saxlanılmasını, onun inkişaf etdirilməsini əsas prioritet kimi qəbul etdiklərini vurğulayan komitə sədri Fuad Muradov Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın tapşırığı ilə xaricdə “Azərbaycan evlərinin” təsis olunduğunu deyib: “Onların nəzdində şənbə-bazar məktəbləri təşkil olunub ki, bizim xaricdə böyüyən uşaqlarımız və gənclərimiz Azərbaycan dilinin mənimsənilməsi üçün bu imkanlardan istifadə etsinlər”.

Təqdimat mərasimində çıxış edən dilçi-alim Səbinə Əliyeva Azərbaycan dili istiqamətində görülən hər bir işin onun üçün Vətənə xidmət olduğunu deyib.

Azərbaycan Dillər Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru Jalə Qəribova belə bir dərsliyə böyük ehtiyac olduğunu söyləyib. “Biz bir neçə ildir ki, xarici tələbələrə Azərbaycan dilini tədris edirik. Həmin prosesdə Azərbaycan dilinin sistemli qrammatikasına dair dərsliyə böyük ehtiyac olduğunu görürdük və biz bunun üzərində çalışmağa başlayaraq bu kitabı ərsəyə gətirdik”, - deyə prorektor qeyd edib.

Kitabın redaktoru və Azərbaycan Dillər Universitetinin rektoru Kamal Abdulla nəşrin əhəmiyyətini vurğulayaraq, bu gün universitetə bir çox ölkələrdən gələn tələbələrin Azərbaycan dilini öyrənmək üçün çox həvəsli olduqlarını diqqətə çatdırıb. “İnanıram ki, bu kitab bizim dilimizi öyrənmək istəyən insanların əlində yararlı bir vasitə olacaq”, - deyə rektor qeyd edib.

Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru Sevinc Əliyeva bu dərsliyin gələcəkdə Azərbaycan dilini öyrənən hər kəs üçün zəngin bir ədəbiyyata çevriləcəyini vurğulayıb.

Tədbir bədii hissə ilə davam edib.

# Məzun – 35

## ömrə əlavə olunan bir gün



Azərbaycan Dillər Universitetinin Psixologiya kafedrasının təşkilatçılığı ilə universitetin 1984-1989-cu illərdə təhsil alan məzun tələbələri ilə görüş keçirilib.

Görüşdə Universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru, dos. Jalə Qəribova, universitetin Ağsaqqallar şurasının sədri Ələddin Əliyev, ADU-nun Müəllim Həmkarlar təşkilatının sərdi Misgər Məmmədov, Psixologiya kafedrasının müdiri Ceyhun Alıyev, Beynəlxalq münasibətlər və Regionşünaslıq fakültəsinin dekan müavini Namiq Kərimov, eləcə də, həmin fakültənin tələbələri iştirak ediblər.

Tədbiri giriş nitqi ilə açan Beynəlxalq əlaqələr üzrə prorektoru, dos. Jalə Qəribova universitetin rektoru akademik K.Abdullanın da təbriklərini tədbir iştirakçılarına çatdırıb.

Universitetin professor müəllim heyəti - Arif Hüseynov, Gəray Yusifov çıxış edərək tələbələrə pedaqoji fəaliyyətlərində yeni uğurlar arzu ediblər. Məzun tələbələr adından üç nəfər əməkdar müəllim - Sevda Abdullayeva, Nahidə Hüseynova, Gültəkin Şıxəliyeva və Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti filologiya üzrə fəlsəfə doktoru Yeganə Hüseynova tələbəlik illəri ilə bağlı xoş xatirələrini və onların müəllim kimi formalaşmasında universitetin rolundan danışıblar. Tədbirin keçirilməsinə görə universitetin rektoru, akademik Kamal Abdullaya dərin təşəkkürü bildirən məzun-tələbə Lisman Kazımov tələbələr adından doğma universitetə hədiyyələri təqdim edib.

# Lənkəranda məzunlarla görüş

Azərbaycan Dillər Universitetinin (ADU) rektoru, akademik Kamal Abdullanın təşəbbüsü ilə həyata keçirilən ADU-nun məzunlarının professionallıq və peşə vərdişlərinin təkmilləşdirilməsi fonunda əlavə təhsil, təcrübə və karyera şöbəsi və tərcümə fakültəsinin təşkilatçılığı ilə universitetin Tərcümə fakültəsinin nəzdində Müasir dillər kafedrasının müəllimləri, dosent Təranə Həsənova və baş müəllim Nurlana Heybətova, Lənkəran şəhər 1 nömrəli məktəbdə ADU-nun 30 məzunu ilə təlim keçiblər.

Tədbirdə ADU-nun müəllimləri Lənkəranlı həmkarları ilə təcrübələrini bölüşərək, məzunlara peşəkar məsləhətlər veriblər.

ADU-nun bu təşəbbüsü, məzunların peşəkar inkişafına dəstək olmaqla yanaşı, regionlarda təhsil keyfiyyətinin artırılmasına da töhfə verməyi hədəfləyir. Təlimin uğurlu nəticələri gələcəkdə bu kimi tədbirlərin davamlı olaraq keçirilməsini zəruri edir.

# ADU TGT sədrinin Tacikistan səfəri

25 sentyabr - 2 oktyabr tarixlərində Azərbaycan Dillər Universiteti(ADU) Tələbə Gənclər Təşkilatının (TGT) sədri Nicat Əliyev Tacikistan Respublikasında 9 ölkənin iştirakı ilə baş tutan MDB ölkələrinin Gənclər Təşkilatlarının Beynəlxalq Forumunda iştirak edib. MDB-yə üzv dövlətlərin Dövlətlərarası Humanitar əməkdaşlıq Fondunun dəstəyi, Tacikistan Respublikasının İqtisadi İnkişaf və Ticarət Nazirliyinin təşkilatçılığı ilə baş tutan forumda “Dünya Azərbaycanlıları Gənclər Təşkilatı” İB-nin üzvləri və katibliyi də iştirak edib. Forum zamanı Nicat Əliyev ölkəmizdə sosial-iqtisadi, gənclər siyasəti və gənclər təşkilatları haqda məlumat xarakterli tədbirlər təşkil edib. MDB məkanında beynəlxalq əməkdaşlığın genişləndirilməsi və möhkəmləndirilməsi məsələləri, iqtisadi sahədə gənclər arasında tərəfdaşlığın inkişafı, strateji istiqamətlərin işlənib hazırlanması və həyata keçirilməsi prosesində gənc mütəxəssislərin aktiv iştirakı, yeni layihə təşəbbüsləri barədə müzakirələr aparılıb. Azərbaycan, Belarusiya, Qazaxstan, Qırğızıstan, Rusiya, Tacikistan, Türkmənistan, Özbəkistan, Ermənistan kimi ölkələrin iştirak etdiyi tədbirin 3-cü günü - 27 sentyabr tarixində N. Əliyevin təşəbbüsü ilə Anım Günü münasibətilə şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla bütün iştirakçı ölkələrin nümayəndələri ilə birlikdə yad edilib.

## ADU Bakı Beynəlxalq Kitab Sərgisində



Oktyabrın 2-8 tarixlərində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 illiyinə həsr olunan 10-cu Bakı Beynəlxalq Kitab Sərgisi (Baku International Book Fair 2024) təşkil edilib.

Regionun bu ən böyük kitab sərgisində ölkənin tanınmış nəşriyyatları, kitab təbliği ilə məşğul olan qurumlar, nüfuzlu ali məktəblər iştirak edib. Həmçinin sərgidə 4 qitəni təmsil edən 18 ölkədən 56 xarici təşkilat, nəşriyyat-poliqrafiya və kitab sənəti ilə əlaqəli müəssisə iştirak edib.

Azərbaycan Dillər Universiteti sərgidə, hər il olduğu kimi, bu il də fəal iştirak edib. Sərgidə universitetin professor-müəllim heyətinin yaradıcılığı əks olunub. Oktyabrın 2-8 tarixlərində təşkil edilən sərgidə müasir akademik və elmi kitabxana konsepti bazasında ADU Elmi Kitabxana və İnformasiya Xidməti Mərkəzi yüzdən çox çap kitab kolleksiyası nümayiş etdirilib.

Qeyd edək ki, kitab sərgisi şirkətlərin çap məhsullarını nümayiş etdirmək və satmaq, habelə yerli və xarici nəşriyyatlar, müəlliflər, eləcə də milli nəşriyyat və poliqrafiya şirkətləri ilə danışıqlar aparmaq və müqavilələr imzalamaq üçün unikal fürsətdir.

## ADU-nun əməkdaşları beynəlxalq kitab sərgisində

2-10 noyabr tarixlərində Azərbaycan Dillər Universitetinin (ADU) əməkdaşları-İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri, yazıçı-dramaturq Cavid Zeynallı və Dünya ədəbiyyatı kafedrasının müəllimi, esseist, ədəbiyyatşünas Qismət Rüstəmov Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 41-ci İstanbul Beynəlxalq Kitab Sərgisində iştirak ediblər.

Sərgidə Cavid Zeynallının "Coğrafiya müəlliminin pençəyi", Qismət Rüstəmovun "Gələcəyin tarixi" adlı Türkiyə türkcəsində nəşr olunmuş kitablarının imza günü keçirilib.



Ədiblər Azərbaycan yazıçılarının iştirakı ilə keçirilən panel müzakirələrdə də iştirak ediblər. Keçirilən müzakirələrdə Qismət Rüstəmov "Sosial media çağında yazmaq" mövzusunda, Cavid Zeynallı isə hekayə və roman haqqında çıxış ediblər.

Qeyd edək ki, TÜYAP kompleksində "Uşaqlıq şənlikdir" şüarı altında keçirilən İstanbul sərgisində Azərbaycan "fəxri qonaq ölkə" qismində iştirak edən ilk ölkədir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə sərgi məkanında ölkəmizin böyük stendi qurulub.

Həmin stenddə ölkəmizdən 20-dən çox nəşriyyatın kitabları, ümumilikdə 2000-dən çox nəşr nümunəsi yer alıb.

Nəşrlər arasında Azərbaycanın dövlətçilik tarixi, Heydər Əliyev Fondunun ədəbiyyat və mədəniyyətimizlə bağlı nəşrləri, bədii ədəbiyyat nümunələri təqdim edilib.

Sərginin bədii hissəsində Azərbaycanın incəsənət ustalarının iştirakı ilə konsert proqramı təqdim olunub.

Səfər zamanı, Azərbaycan nümayəndə heyəti şəhərin Sarıyer rayonunda yerləşən Heydər Əliyev parkında xalqımızın Ümummilli lideri, müasir Azərbaycan dövlətinin qurucusu, dahi siyasətçinin abidəsini də ziyarət edib.

## "Kitabi-Dədə Qorqud" və qeyri-səlis məntiq" kitabının imza günü

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində keçirilən 10-cu Bakı Beynəlxalq Kitab Sərgisinin açılış mərasimində mədəniyyət naziri Adil Kərimli, AMEA Prezidenti, akademik İsa Həbibbəyli, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, Milli Məclisin vitse-spikeri, akademik Rafael Hüseynov, Xalq yazıçısı Elçin Əfəndiyev və deputatlar, ictimai-mədəni xadimlər, media mənsubları iştirak ediblər. Builki yubiley sərgi dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin (1494-1556) anadan olmasının 530 illiyinə həsr edilmişdi.



Sərgidə ADU-nun rektoru, akademik, Xalq yazıçısı Kamal Abdulla və professor Rafiq Əliyevin birgə yazdığı "Kitabi-Dədə Qorqud" və qeyri-səlis məntiq" kitabının imza günü keçirilib.

Qeyd olunub ki, Lütfi Zadənin məntiq nəzəriyyəsindən də bəhrələnərək ərsəyə gələn kitabda qeyri-səlis məntiq nəzəriyyəsində söylənilən dörd sütun - ümumi məntiq sütunu, qeyri-səlis çoxluqlar sütunu, epistemik (epistemoloji) sütun və münasibətlər sütunu haqqında yazılıb:

"Türklərin qədim dastanı olan "Kitabi-Dədə Qorqud" dastanı qeyri-səlis məntiq prinsiplərinə öz dil məkanında bol-bol yer verir. Bu qədim dastanın dərinində gizlənən düşüncə tərzi qeyri-səlis məntiqin dörd sütununa aid olan spesifik məntiqi sxemlərin formalaşmasına gətirir.

Məlum olur ki, dastanımızda qeyri-səlis məntiqə dair kifayət qədər geniş dil materialı var. Bu da öz növbəsində ondan xəbər verir ki, qədim əcdadımız dünyaya baxışında daha geniş və dərin yanaşmanı üstün tutur. Seçim imkanı olan yanaşma onun tərcihi olur".

Tədbirdə çıxış edənlər bildiriblər ki, kitab həm Qorqudşünaslar, həm də informasiya nəzəriyyəçiləri üçün faydalı və maraqlı olacaq. Çünki qeyri-səlis məntiq prinsipləri xalq yaradıcılığına, dastana ilk dəfədir tətbiq edilir.

Bildirilib ki, dastanın mətni göstərir ki, qeyri-səlis məntiqin aparıcı ideoloji prinsipi olan seçim imkanı və demokratik yanaşım tərzi, başqa sözlə desək, tolerantlıq xalqımıza qədim zamanlardan bəri xas olan əbədi bir dəyərdir. Əcdadımız demokratik tərzdə düşünməyi məhz qeyri-səlis məntiq prinsiplərindən yararlanaraq öyrənmişlər. Onların bu prinsiplərdən bəhrələnməyi dünyagörüşlərindəki genişliyə olan meyil, məsələnin dərinliklərinə, incəliklərinə canatma marağı sayəsində mümkün olmuşdur.

Tədbirin sonunda müəlliflər kitabı oxucular üçün imzalayıblar.

## Sərginin ÇXR-dən olan iştirakçıları ADU-nun qonağı olub



Oktyabrın 3-də X Bakı Beynəlxalq Kitab Sərgisində iştirak edən Çin Xalq Respublikasından olan bir qrup nümayəndə Azərbaycan Dillər Universitetinin qonağı olub. Görüşdə ÇXR-in Phonix Nəşriyyat və Media Qrupunun Baş direktor müavini Zhou Jianjun və Şərqi Çin Pedaqoji Universiteti Nəşriyyatının Prezidenti Vang Yanın başçılığı altında nümayəndə heyəti və ADU-nun rəhbər şəxsləri iştirak ediblər.

Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla qonaqları səmimi salamlayaraq, onları universitetdə görməkdən məmnun olduğunu bildirib. Azərbaycan Dillər Universitetinin dünyanın bir çox xarici universitetləri ilə əlaqələrinin uğurla inkişaf etdiyini vurğulayan rektor bugünkü görüşün əməkdaşlıq üçün daha geniş böyük imkanlar açacağına əminliyini vurğulayıb.

Bildirilib ki, ADU-nun nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutu - Azərbaycan və Çin arasında təhsil sahəsində əməkdaşlığı gücləndirir, Çin dilinin tədrisinə və mədəniyyətinə marağı stimullaşdırır. Konfutsi İnstitutu Çin dilinin tədrisinin inkişafı üçün xalqlarımız arasında qarşılıqlı münasibətlərin artırılmasına xidmət edir. Eyni zamanda, Çin Xalq Respublikasının Xudzou Dövlət Universitetində Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin uğurlu fəaliyyəti Azərbaycan-Çin münasibətlərinin müxtəlif müstəvilərdə inkişafına kömək edir. Azərbaycan dili, mədəniyyəti və tarixini Çin Xalq Respublikasında təbliğ edən bu mərkəzlə sıx əlaqələr mövcuddur. Yaxın vaxtlarda ÇXR-ə ezam olunacaq ADU-nun bir qrup nümayəndə heyətə olacaq.

Səmimi qarşılanmaya və qonaqpərvərliyə görə təşəkkürünü bildirən Phonix Nəşriyyat və Media Qrupunun Baş direktor müavini Zhou Jianjun univesitetdə olmaqdan məmnunluğunu ifadə edib. Beynəlxalq Kitab Sərgisi çərçivəsində Çin nəşriyyatlarının iştirakının təşkilində göstərilən dəstəyə və Çin mədəni irsinə olan diqqətə görə təşəkkürünü ifadə edən qonaq bildirib ki, X Bakı Kitab Sərgisi iştehlakçılarla ünsiyyət qurmaq, kitab biznesinin inkişaf etdirilməsi ilə bağlı beynəlxalq təcrübələri bölüşmək üçün ideal platformadır. Bu sərgi hər iki xalqın mədəni irsinin öyrənilməsi və təbliğinə öz töhfəsini verəcək.

Görüşdə çıxış edən Şərqi Çin Pedaqoji Universiteti Nəşriyyatının Prezidenti Vang Yan bildirib ki, Azərbaycan və Çin arasında bütün sahələrdə olduğu kimi, elm və təhsil sahəsində də əməkdaşlıq yüksələn xəttlə inkişaf edir. Bu baxımdan, Azərbaycan Dillər Universiteti ilə olan sıx təmaslar ölkələrimiz arasında münasibətlərin inkişafına töhfə verir. ADU ilə əlaqələri yüksək dəyərləndirən qonaq iki ölkə arasında mədəni, elmi əməkdaşlığın genişləndirilməsi imkanlarını müzakirə edib, Çin-Azərbaycan mədəni əməkdaşlığının davamı olaraq tərcümə layihələrinin önəmini vurğulayıb.

Daha sonra qonaqlar ADU-nun nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutu ilə tanış olublar, xatirə şəkli çəkdiriblər.

# Şəhid Elvin Bayramovun xatirəsi anılıb



Azərbaycan Dillər Universitetində (ADU) Beynəlxalq münasibətlər və regionşünaslıq fakültəsi və Tələbələrlə iş və tədbirlərin təşkili şöbəsinin birgə təşkilatçılığı ilə sözügedən fakültənin Almaniyaşünaslıq ixtisası üzrə məzunu Elvin Bayramovun şəhid olmasının ildönümü münasibətilə anım tədbiri keçirilib.

Tədbirdə Azərbaycanşünaslıq Elmi Mərkəzinin müdiri Aqşin Rüstəmov, Regionşünaslıq kafedrasının müdiri professor Sevdagül Əliyeva, həmin kafedranın müəllimi Səbinə Muradova, Fəlsəfə və ictimai elmlər kafedrasının müəllimi professor Şəfəq Abdullayeva, Xarici ölkələr ədəbiyyatı kafedrasının müəllimi Nigar Rəcəbova, Tələbələrlə iş və tədbirlərin təşkili şöbəsinin müdiri Səadət Qasımova, həmin şöbənin əməkdaşları, şəhidin valideynləri, yaxınları, qrup yoldaşları və tələbələr iştirak ediblər.

Regionşünaslıq kafedrasının müdiri professor Sevdagül Əliyeva şəhid Elvin Bayramovun müəllimlərinin, tələbə yoldaşlarının və dostlarının onunla bağlı xatirələrindən ibarət qələmə alınmış kitab haqqında məlumat verib, şəhid Elvin Bayramovun ömür və döyüş yolundan danışıb.

Fakültənin professor-müəllim heyəti və yoldaşları şəhidin tələbəlik illərindən xatirələri tədbir iştirakçılarının diqqətinə çatdırıblar.

Tədbirdə şəhidlərimizin əziz xatirəsinin qəlblərdə əbədi yaşayacağı, heç zaman yaddaşlardan silinməyəcəyi xüsusi vurğulanıb.

Bədii hissədə universitetin tələbələri şəhidlərə aid şeir söyləyib, mahnı ifa ediblər.

Sonda tələbələr və qonaqlar şəhidin adını daşıyan auditoriyada onun şəkilləri önünə gül dəstələri qoyublar.

Qeyd edək ki, Bayramov Elvin İslam oğlu 1999-cu il iyulun 8-də Bakı şəhərində anadan olub. İki bacının yeganə qardaşı olan E.Bayramov orta təhsilini 298 saylı məktəbdən alıb. 2016-ci ildə məktəbi bitirərək Azərbaycan Dillər Universitetinin Beynəlxalq münasibətlər və idarəetmə fakültəsinin Almaniya üzrə regionşünaslıq ixtisasına daxil olub. O, 2020-ci ildə ali təhsilini bitirib həqiqi hərbi xidmətə yola düşüb.

2020-ci ilin sentyabrın 27-də başlayan Vətən müharibəsində Azərbaycan torpaqlarının düşmən işğalından azad olunması uğrunda gedən döyüşlərdə fəal iştirak edib. Füzuli istiqamətində igidlik və fədakarlıq göstərən E.Bayramov oktyabrın 26-da qəhrəmancasına döyüşərək, şəhid olub.

Müharibənin şiddətli vaxtında Elvin Bayramov ailəsilə telefonla danışan zaman sona qədər vuruşacağını bildirib. "Mən kişiyəm, sonacan vuruşacağam, ölmək varsa, mən də ölərəm", - sonuncu dəfə danışarkən ailəsinə bu sözləri deyib. Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

***

Azərbaycan Dillər Universitetinin Beynəlxalq münasibətlər və Regionşünaslıq fakültəsinin şəhid məzunu Elvin Bayramovun vəfatının dördüncü ildönümü ilə əlaqədar, 26 oktyabr tarixində fakültənin dekan müavini, dosent Namiq Kərimov və fakültənin ictimai fəal tələbələri şəhidin məzarını ailə üzvləri ilə birgə ziyarət edib, gül dəstələri qoyublar.

Onlar şəhid Elvin Bayramovun keçdiyi həyat yolu və vətənpərvər bir gənc kimi yetişməsi ilə bağlı ailə üzvləri ilə söhbət aparıb, Vətənə ləyaqətli övlad yetişdirdiyi üçün şəhidin anasına dərin minnətdarlıqlarını bildiriblər.

## Şəhid Əzim Həsənovun anım mərasimi

Oktyabrın 31-də Azərbaycan Dillər Universitetində İngilis və alman dilləri fakültəsinin təkilatçılığı ilə şəhid məzun Əzim Həsənovun anım mərasimi keçirilib.

Tədbirdə rektor məsləhətçisi, iqtisadiyyat üzrə fəlsəfə doktoru Anar Osmanlı, İngilis və alman dilləri fakültəsinin dekanı dosent, filologiya üzrə fəlsəfə doktoru Naibə Camalzadə, İngilis dilinin leksikologiyası kafedrasının müdiri vəzifəsini icra edən professor Fikrət Cahangirov, Alman dilinin leksikologiyası kafedrasının müdiri dosent Xuraman Əsgərova, İngilis dilinin fonetikası kafedrasının müdiri dosent Xatirə Qocayeva, İngilis və alman dilləri fakültəsinin dekan müavinləri, filologiya üzrə fəlsəfə doktorları Elnarə Putayeva və Lalə Həsənova, ADU Tələbə Gənclər Təşkilatının sədri Nicat Əliyev, ADU-nun şəhidin valideyni Fikrət Həsənov iştirak ediblər.

Tədbiri giriş sözü ilə İngilis və alman dilləri fakültəsinin dekanı, dosent Naibə Camalzadə açıb.

Tədbirdə professor Fikrət Cahangirov şəhidlə bağlı xatirələrini bölüşüb.

Tələbələr Nicat Əliyev, Nigar Hüseynova, Elmira Kərimova, Zəhra Hüseynova, Səkinə Yusubova, Nəzrin Yusifzadə, Azadə Rəcəbli, Gül Dadaşova, Aytac Əliyeva, Nərgiz Şirinova, Nəzrin Əlizadə, Günay Bəndəliyeva isə şəhid məzunumuzun təhsil aldığı müddətdəki fəaliyyəti ilə bağlı tədbir iştirakçılarını məlumatlandırıb.

Anım tədbiri zamanı şəhidlə bağlı bir neçə videoçarx nümayiş olunub.

Tədbir zamanı çıxış edən şəhidin atası F.Həsənov övladının əziz xatirəsini hər zaman uca tutduğu üçün ADU rəhbərliyinə minnətdarlığını bildirib.

Tədbirin sonunda çıxış edən rektor məsləhətçisi A.Osmanlı şəhid məzun Ə.Həsənovun şücaət və qəhrəmanlığının hər kəsin qürur mənbəyi olduğunu vurğulayıb.

Qeyd edək ki, Əzim Fikrət oğlu Həsənov 13.06.1998-ci ildə Balakən rayonunun Kortala kəndində anadan olub. Atası Fikrət Həsənov Ağdam rayonunun Xıdırlı kəndində anadan olub. Qarabağın işğalından sonra Əzimin ailəsi müvəqqəti olaraq Mingəçevir şəhərində məskunlaşıb. Anası Şəhla Həsənova Balakən rayonunun Kortala kəndindəndir. Əzim Həsənov 3-cü sinifə qədər Mingəçevir şəhərində yerləşən Ağdam 52 saylı orta məktəbdə, sonra isə Mingəçevir şəhər 19 saylı orta məktəbdə təhsil alıb. O, çox tərbiyəli, məsuliyyətli, ağıllı və vicdanlı şagird kimi həm müəllimlərinin, həm də sinif yoldaşlarının rəğbətini qazanıb.

Orta məktəbi əla qiymətlərlə bitirən Əzim Həsənov 2015-ci ildə Azərbaycan Dillər Universitetinə qəbul olub və Universiteti fərqlənmə diplomu ilə bitirib. Tələbəlik illərində o, elmi biliklərini inkişaf etdirməklə yanaşı "Vətənpərvərlər departamenti"nin də sədr müavini olaraq "Təşəkkürnamə" ilə təltif edilib. Fakültənin professor-müəllim heyəti və tələbə yoldaşları onu hər zaman xoş sözlərlə xatırlayırlar.

Əzim Həsənov 2019-cu ildə həqiqi hərbi xidmətə yollanıb. O, hərbi xidmətdə olarkən İkinci Qarabağ müharibəsi (Vətən müharibəsi) başlanıb. Əzim "həmlə taboru"nda xidmət edərək Cəbrayıl, Hadrut, Xocavənd və Füzuli uğrunda gedən döyüşlərdə cəsarətlə vuruşub. O, deyirdi ki, döyüşə gülə-gülə, sevinə-sevinə gedirik və torpağımızın hər qarışını alanda ruh yüksəkliyimiz daha da artır. Əzim Həsənov Füzulinin Aşağı Seyidəhmədli kəndində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub və 30 oktyabr 2020-ci il tarixində Mingəçevir şəhərinin "Şəhidlər xiyabanı"nda dəfn olunub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Əzim Fikrət oğlu Həsənov vətən qarşısındakı xidmətlərinə görə "Vətən uğrunda", Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

## Anım Günü




Azərbaycan Dillər Universitetində 27 sentyabr - Anım Günü ilə bağlı "Zəfəri çiynində daşıyan məzar" adlı tədbir keçirilib. Tədbirdə universitetin əməkdaşları, müəllimlər və tələbələr iştirak ediblər.

Öncə Dövlət Himni səsləndirilib. Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

ADU-nun rektoru, akademik Kamal Abdulla tədbir iştirakçılarını salamlayıb, Zəfər tariximizin əhəmiyyətindən danışıb. Qeyd olunub ki, 27 Sentyabr Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunmuş bir tarixdir: "Bu gün həm sevincli, həm də kədərli bir gündür. Azərbaycan öz doğma torpaqlarına qovuşmağın sevincini yaşayır. Eyni zamanda yüzlərlə qəhrəman övladlarının itkisi ilə kədərlənir. Biz inanırdıq ki, Qarabağ azad olacaq. Biz inanırdıq ki, yenidən öz torpaqlarımıza qayıdacağıq. Zəfəri bizə yaşadanları heç vaxt unutmayacağıq.

Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrik siyasəti, dərin biliyi və Vətənə olan sevgisi qələbəni bizə yaşatmaq üçün əsas oldu. Şəhidlərimizin, qazilərimizin böyük şücaəti, cəsarəti və igidliyi nəticəsində uzun illərdi həsrətində olduğumuz yurd yerlərinə qovuşduq. Bu gün Azərbaycan həqiqətləri bütün dünyaya məlumdur.

Bu il ADU-ya tələbələrin qəbul göstəriciləri ən yüksək həddə olmuşdur. Bu da bizə olan etimadın və inamın nəticəsidir. Bundan sonra da öz işimizdə, hərəkətimizdə, əməlimizdə qalib xalqa layiq şəkildə fəaliyyət göstərməliyik".

ADU-nun Qafqazşünaslıq və Azərbaycan tarixi kafedrasının dosenti Namiq Kərimov və Psixologiya üzrə fəlsəfə doktoru Günay Məmmədova məruzələrlə çıxış ediblər.

Daha sonra tələbələrin ifasında şeirlər səsləndirilib. Ədəbi-bədii musiqili kompozisiya təqdim olunub.

# Məndən başlanır Vətən

Azərbaycan Dillər Universitetinin (ADU) dəstəyi, "İRƏLİ" İctimai Birliyinin təşkilatçılığı ilə ADU-da 27 Sentyabr xalqımızın 44 günlük Vətən müharibəsinə başlanğıcının 4-cü ildönümü ilə bağlı Anım Gününə həsr olunmuş görüş keçirilib.

"Məndən başlanır Vətən" adlı maarifləndirici görüşdə şəhid ailə üzvləri, qazilər, müəllim və tələbə heyəti iştirak ediblər.

Tədbirdə Azərbaycan Dillər Universitetinin Müəllim Həmkarlar İttifaqının sədri Misgər Məmmədov, Filologiya üzrə Beynəlxalq jurnalistika şöbəsinin müdiri Nərgiz Çərkəzqızı, "İRƏLİ" İctimai Birliyinin sədri, Vətən müharibəsi iştirakçısı Şahin Rəhmanlı çıxış edərək xalqımızın qürur tarixi olan 27 sentyabrda baş vermiş hadisələrdən, parlaq zəfərin başlanğıcından söz açıblar.

Qeyd olunub ki, Ermənistanın 30 illik işğalı müddətində ölkəmizin başçısı, Ali Baş Komandan cənab İlham Əliyev ən ali kürsülərdən suverenliyimizin bərpa olunmasının əhəmiyyətini, Qarabağın tarixi və əzəli Azərbaycan torpaqları olduğunu beynəlxalq ictimaiyyətə çatdırmışdır. Bu illər ərzində dövlətimiz ordu quruculuğunu inkişaf etdirmiş, ölkə gəncləri vətənpərvər ruhda, milli-mənəvi dəyərlərə sadiq tərbiyə edilmişdir.

Daha sonra tədbirdə çıxış edən Vətən müharibəsi iştirakçıları Orxan Məmmədzadə, Kənan Qasımov və Akif Zeynalzadə çıxış edərək 44 günlük zəfər xatirələrindən, döyüş yoldaşlarının qəhrəmanlığından söz açıblar.

# ADU-nun muzeyi
## keçmişi yaşadan tarix



Odlar Yurdu Azərbaycan qədim tarixə, zəngin mədəniyyətə malik bir ölkədir. Hələ XIX əsrdə Azərbaycanın siyasi, mədəni həyatında baş verən dəyişikliklər, təbii olaraq, muzeylərin yaranmasına və muzey işinin həyata keçirilməsində əsas rol oynayıb. Bu gün isə artıq Azərbaycanda 201 muzey fəaliyyət göstərir.

Vaxtilə ulu öndər Heydər Əliyev tərəfindən həyata keçirilən muzeylərin maddi-texniki bazasının gücləndirilməsi və muzey şəbəkəsinin genişləndirilməsi prosesləri bu gün cənab Prezident İlham Əliyev tərəfindən xüsusi qayğı ilə davam etdirilir. Ölkəmizdə fəaliyyət göstərən muzeylərin bir çoxu texnoloji avadanlıqlarla təmin edilib və müasir standartlara cavab verir. Ali Baş Komandan cənab İlham Əliyevin başçılığı altında erməni işğalçılarından azad edilmiş doğma torpaqlarımızda erməni vandalları tərəfindən dağıdılmış mədəniyyət ocaqları bərpa edilir, yeniləri tikilir və xalqın ziyarətinə açıq elan edilir.

Müasir dünyamızda həm Azərbaycan, həm də digər ölkələrdə təhsil müəssisələrinə aid muzeylərin fəaliyyəti öz aktuallığını bu gün də saxlayır. Belə ki, Oksford, Kembric, Qlazqo, Mançester, Boloniya və digər məşhur ali təhsil ocaqlarında bu universitetlərin muzeyləri fəaliyyət göstərir ki, onlar yalnız ekspozisiya deyil, həm də tədqiqat və tədris prosesini də icra edirlər. Azərbaycanda isə Bakı Dövlət Universiteti, Tibb Universiteti, Azərbaycan Dillər Universiteti, Bakı Slavyan Universiteti və s. nəzdində muzeylər yaradılıb.

Azərbaycan Dillər Universitetinin Muzeyi 2017-ci ildən fəaliyyət göstərir. Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdullanın göstərişi ilə 2023-cü ilin avqust ayında əsaslı təmir edilmiş muzey müasir texniki avadanlıqlarla, daha zəngin eksponatlarla yenidən təşkil edilmişdir. Eksponatlar içərisində əsas yeri ADU-nun “Müasir dillər” üzrə dünyada ən yaxşı 301-340 universitetlər qrupuna daxil olması haqqında QS 2023 və QS 2024 sertifikatları tutur. Bu isə universitetimizdə keyfiyyətli təhsilin, yüksək çalışqanlılığın və təbii ki, dəyərli rektorumuz Kamal Abdullanın əvəzsiz zəhmətinin bəhrəsidir.

ADU-nun muzeyi ekspozisiya otağı və fonddan ibarətdir. Əsas eksponatları universitetin tarixini, fəaliyyətini və uğurlarını əks etdirən sənədli materiallar, məktublar, fotosənədlər, hədiyyələr, diplomlar, kuboklar və digər kateqoriyalardan ibarət əşyalar təşkil edir. ADU-nun muzeyində “Səfir saatı” guşəsi də vardır ki, burada universitetə dəvət olunan səfirlər ilə görüşlərdən fotolar yer alır. Muzeydə universitetin ölkə daxili və ölkə xarici səfərlərdə, yarışlarda əldə etdiyi sertifikatlar, diplom, fəxri fərman, təşəkkürnamələr də saxlanılmaqdadır. Muzeyin rəy kitabında isə ADU-ya gələn qonaqların universitetimiz haqqında fikirləri yer alır.

Universitetin muzeyində, həmçinin, ADU-nun tələbələri olmuş şəhidlərimiz - Ülvi Bünyadzadə (1969-1990), Əzim Həsənov (1998-2020), Teymur Osmanlı (1995-2020) və Elvin Bayramovun (1999-2020) fotoları olan guşə var. Gələn hər bir ziyarətçiyə şəhid tələbələrimizin həyatı, qəhrəmanlıqları və Ermənistan-Azərbaycan münaqişəsi haqqında ətraflı məlumat verilir. Bu isə öz növbəsində qonaqlarımızın tarixi faktları düzgün öyrənərək haqlı mövqe nümayiş etdirmələrinə, həqiqətləri xarici vətəndaşlara çatdırmaqda kömək olur.

2020-ci il 5 oktyabr tarixində universitetimizdə erməni təxribatları haqqında həqiqətlərin dünyaya çatdırılması üzrə qərargah yaradılmışdı. Mərkəzlərin, elmi-tədqiqat laboratoriyalarının, digər strukturların əməkdaşları, eləcə də doktorantlar, magistrlər müxtəlif ölkələrin nümayəndəliklərinə, media orqanlarına, qurumlara, elm xadimlərinə ermənilərin hərbi təxribatları, dinc əhaliyə qarşı amansız rəftarları barədə çoxlu sayda məktublar göndərmişlər. Onlardan bir qismi muzeydə “Qarabağ həqiqətləri” başlığı altında sərgilənir. Məktublar yazıldığı xarici dil ilə yanaşı, tərcümə edilərək iki formada yerləşdirilib.

ADU-nun muzeyində K.M.Abdullayevin Azərbaycan Dillər Universitetinin rektoru təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 1 iyun 2017-ci il tarixli Sərəncamı və publik hüquqi şəxs statusuna malik olan Azərbaycan Dillər Universitetinin yenidən təşkili haqqında Azərbaycan Respublikası Prezidentinin 16 iyun 2017-ci il tarixli Sərəncamı da əks olunub.

Muzeyimizdə müxtəlif sərgilər, tədbirlər, görüşlər həyata keçirilir və 12 nəfər tələbə tutumlu oturacaqlar ziyarətçilərin ixtiyarına verilib. Ötən dərs ili ərzində muzey otağında müəllimlərin 5 qrupda 9 müxtəlif fənn üzrə proyektor, internet, kompüterdən səmərəli istifadə edərək interaktiv dərs aparmasına, daha keyfiyyətli tədris prosesinin həyata keçirməklərinə şərait yaradılmışdır. Burada hər bir tələbəmiz eksponatlarla bağlı məlumat əldə edir, universitetin tarixini əks etdirən sənədlər, fəaliyyətimiz ilə ətraflı tanış olur. Bu, onlarda asudə vaxtın səmərəli keçirilməsinə xidmət edir və tələbələrdə Azərbaycanda dilçilik elminin tarixi, universitetin dünəni, bu günü və gələcəyi haqqında geniş təəssürat yaradır. Təbii ki, ekskursiya prosesi ərzində əldə edilən bu məlumatlar ziyarətçilərdə estetik zövqün, elmi-mədəni baxışların formalaşmasına, dil və mədəniyyət əlaqələrinin tamlığının başa düşülməsinə kömək edir.

Azərbaycan Dillər Universitetini xarici ölkələrin səfirləri, tanınmış yazıçılar, diplomatlar, elm dünyasına öz töhfələrini vermiş şəxslər tez-tez ziyarət edir. Muzeyimizdə sərgilənən əşyalar içərisində qonaqlarımızın təqdim etdiyi hədiyyələr xüsusi yer tutur ki, bu da muzeyin digər bir funksiyasını, mədəni mübadilə prosesini özündə əks etdirir. Belə ki, digər ölkənin mədəniyyətini təmsil edən bu əşyalar muzeyə təqdim edilir və eynilə qonaqlarımıza Azərbaycan mədəniyyətini, universitetimizin ideya-siyasi və təhsil xəttini özündə əks etdirən hədiyyələr təqdim edilir. Muzey sərvətinə çevrilən bu hədiyyələr uçota alınaraq inventar kitabına salınır, vitrinə yerləşdirilir (məlumat vərəqəsi və ya lövhəsi ilə). Bu isə muzeyin mühafizə funksiyasını təşkil edir. Bu gün muzeydə yüzlərlə bu cür mədəni və mənəvi dəyərləri özündə cəmləyən hədiyyələr toplanıb ki, onların əsas hissəsi sərgilənir, bir qismi isə fond otağında mühafizə edilir.

Həmçinin muzeydə tələbələrin boş vaxtlarını səmərəli keçirmələri üçün müxtəlif proqramlar təşkil edirik ki, bura dil biliyinin artırılması və fərqli mədəniyyətlərin tanınmasına xidmət edən filmlər, müzakirələr, kitab dəyərləndirmələri, muzey gəzintiləri daxildir. Tələbələrimizi aktiv olmağa, yeni ideyaların və layihələrin həyata keçirilməsində iştirak etməyə dəvət edirik.

Dəyərli qonaqlarımızı, oxucularımızı universitetimizin muzeyində görməyə hər zaman şadıq!

**Lalə MƏMMƏDOVA,**
**ADU-nun muzeyinin müdiri**

# Sevgi və ölüm

İnsan həyatı yol ayırıcıları ilə doludur. Bəzən iki, hətta daha çox seçim qarşısında qalırıq. Bəzən isə seçimsiz qalırıq, bəzən də seçim etməkdən qorxuruq. Elə an gəlib çatır ki, verəcəyimiz qərarlar o qədər ağır və çətin olur ki, İlahi qüvvədən bir işarət gözləyirik. Belə zamanlarda içimizdə vahimə, qorxu, ən pisi isə hələ verilməmiş qərarın peşmanlıçılığını hiss edirik.

Lakin hamı belə deyil. Hərdən içimizdən elələri çı-



xır ki, ən kritik vaxtda, “çıxış yolu yoxdur” deyilən imkansız anda “Aut viam inveniam aut faciam!” (“ya yeni bir yol tapılacaq, ya da yeni bir yol olacaq!” Hannibal) deyərək cəsarətlə irəli atılır!

Hə, məhz belə vaxtda seçim və qərardan çox, tutduğumuz yolun vacibliyini yerinə yetiririq! Bu gün sizlərlə məhz bu barədə kiçik bir söhbət edəcəyik...

Xristianlıq İsa Peyğəmbərlə başladı. 313-cu il Milan fərmanı ilə də rəsmiləşdi. O, dönəmə qədər xristianlar Roma dövləti tərəfindən təqib edilirdi, bu dinin çoxalmasına, təbliğatının aparılmasına mane olurdular. I Konstantinin xristianlığla əlaqədar verdiyi qərar yeni dövrün başlanğıcı oldu.

Beləliklə, xristianlıq sürətlə yayılmağa başladı. Bu geniş yayılma nəticəsində 1054-cü ildə ortodoksal kilsə parçalanaraq, pravoslav kilsəsi və katolik kilsəsi olmaq üzrə ikiyə bölündü. Sonrakı dövrlərdə katoliklərin xalq üzərindəki ağır vergi siyasəti, səhv verilmiş qərarlar XVI əsrdə protestantlağın yaranmasına səbəb oldu.

XVI əsrdə Avropada baş verən dini ayrı-seçkilik, mübarizə pik nöqtəyə çatdı. Belə ki, gücü əlində saxlayan katoliklər kafir (protestantları) adlandırdıqları hər kəsi kütləvi şəkildə öldürməyə başladılar.

Bunun ən gözəl nümunəsi Varfolomey faciəsidir. Varfolomey 23 avqust 1572-ci ildə Fransada baş vermişdi. Bir “gecə” ərzində 3 min protestant qətlə yetirilmişdi. Bunun ardınca isə bütün Fransada on min və ya əlli minə yaxın protestant qətlə yetirilmişdi. Katoliklər peşman olub “haqq”a dönənlərdən başqa, hər kəsi edam edirdilər. Peşman olanlar isə qollarına bəyaz parça bağlayaraq tövbə edib, yenə katolik olduqlarını bəlli edirdilər. Katoliklər bu nişanı daşıyan heç kimə toxunmurdular.

...Gələk, rəsmin bu tarix və hadisələrlə əlaqəsinə. Bu rəsm tanınmış rəssam John Everett Millais tərəfindən 1852-ci ildə çəkilmişdir. Rəsmin tam adı: “Müqəddəs Varfolomey Günündə”. Rəsmdə bir qızın sevdiyi oğlanın qoluna bəyaz sarğını bağlayarkən yalvarmış kimi baxdığını görürük. Oğlan isə eyni sevgi ilə buna icazə vermir və son dəfə sevgilisinin gözlərinə baxaraq gülümsəyir.

Oğlan protestantdan, qız isə katolikdir. Qız sevdiyi oğlanın qoluna bəyaz parça bağlamaq istəyir. Onu bu yolla qorumağa çalışır. Ancaq oğlan, sonunda ölüm də olsa, doğru bildiyi yoldan dönməməkdə israrlıdır və sanki gözləri ilə qıza “bu mənim həqiqətimdir!” deyir. Fəqət qız, bu kədərli sonluqdan, sadəcə, bir düyün qədər uzaqdır. O, qətiyyən, sevgisini əldən vermək istəmir. Bütün gücü ilə onu bu sondan xilas etmək istəyir. Ancaq oğlan artıq öz seçimi vermişdi...

...Biri sevdiyini seçərkən, digəri öz ideyalarını seçir...

Öz ideya və əqidəsinə görə sevdiyi qızdan ayrılmağa razı olan, yoxsa sevdiyini göz görə-görə ölümə göndərən qız?.. Bu rəsm kimin faciəsidir?

Bəs, sən? Sən bu rəsmdə hansı personajsan? Qızmı? Oğlanmı? Yoxsa, rəsmin yaranma səbəbi?

Sənin qərarın nə olardı?



**Azad ABBASOV,**
**Beynəlxalq münasibətlər və Regionşünaslıq fakültəsi, 361b qrup tələbəsi**

# POLİQLOT

№ 4(258) oktyabr-noyabr 2024 * Təsisçi: Azərbaycan Dillər Universiteti * www.adu.edu.az

# Xarici dil potensialının gücü



Azərbaycan Dillər Universitetində (ADU) Filologiya fakültəsinin təşkilatçılığı ilə Gənc Xarici Dil Müəllimləri Birliyinin sədri, Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın katibi Günay Əkbərova tərəfindən “Xarici dil potensialının gücü: Türk dünyasının beynəlxalq arenada yüksəlişi” mövzusunda təlim keçirilib.

Təlimin əsas məqsədi müəllimlərin və tələbələrin müvafiq istiqamətdə bilik və bacarıqlarının artırılması, eləcə də, onların məlumatlılığının yüksəldilməsi idi.

200-ə yaxın müəllim və tələbənin iştirak etdiyi təlimdə mövzu ətrafında müzakirələr aparılıb, fikirlər mübadiləsi edilib.

Tədbirin sonunda Günay Əkbərova hər kəsi xarici dil potensialını artırmağa, Türk dünyasının beynəlxalq arenadakı yüksəlişində iştirak etməyə dəvət edib.

# ADU-da “Alman Dili Günü”

Alman Dili Birliyinin Azərbaycanda rəhbəri Alman dilinin leksikologiyası və üslubiyyatı kafedrasının dosenti Gülənbər Pirnəzərovanın təşəbbüsü və təşkilatçılığı ilə Azərbaycan Dillər Universitetində “Alman Dili Günü”nə həsr edilmiş tədbir keçirilib.



Tədbirdə 53 saylı tam orta məktəbin 11-ci sinif şagirdləri Fatimə Şıxaliyeva və Aylin Qasımzadə, Hacıqabul rayonu Ağacanlı kənd orta məktəbinin şagirdləri Aysan Abbaszadə, Fatimə Həşimli, Zeynəb Qubadzadə, Məleykə Səfərova, həmin məktəbin alman dili müəllimi Vüsalə Ağaliyeva, Zirvə liseyinin şagirdləri Əminə Axundzadə, Leyla Mailova, Zəhra Rəsulova, Mədinə Mehdizadə, Mədinə Mikailova, Mədinə Rüstəmli, Əsmər Əlizadə, Elay Həsənli, Səma Ədilova, Ümid Hacıbalazadə, Hilay Seyidzadə, həmin məktəbin alman dili müəllimləri- Günel Yahyayeva, Xalidə Abdıyeva, Abşeron rayon Xırdalan şəhər 1 saylı tam orta məktəbin şagirdləri Məsumə Mustafazadə, Xədicə Səftərova, Yusif Zamanlı, Əli Mirzazadə, Zəhra Musayeva, həmin məktəbin alman dili müəllimi Sevinc Musayeva, 18 saylı orta məktəb şagirdləri- Duyğu Paşazadə, Aydan Oruclu, Fərəh Abbaszadə, Ayla Əliyeva, Seyid-Fatimə Əşrəfova, həmin məktəbin alman dili müəllimi Pərvanə Kərimova, Qubadlı rayon Muradxanlı kənd orta məktəbinin 11-ci sinif şagirdi Murad Mansurov, Azərbaycan Dillər Universitetinin filologiya fakültəsinin tələbələri- Rəşidə Heydərova, Fatimə Əliyeva, Xədicə Heydərova, Fidan İbrahimova, Leyla Zeynallı, Qalib Qurbanzadə, həmin tələbələri hazırlayan Amalya Nəzərova, Azərbaycan Dillər Universitetinin İngilis və alman dilləri fakültəsinin tələbələri- Abdullah Məmmədli, Əfsanə İbiyeva, Riad Quliyev iştirak ediblər.

Alman Dili Birliyinin Azərbaycandakı rəhbəri Gülənbər Pirnəzərova çıxışında günün önəmi haqqında danışarkən, universitetdə hər il qeyd olunduğunu bildirib.

Tədbir haqqında fikirlərini bölüşən rektor köməkçisi Anar Osmanlı tədbirin hazırlanmasında universitetlə məktəblərin birgə işbirliyini təqdirəlayiq hesab edib.

Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamını əsas tutaraq Xəyalə Musayeva tədbirdə dahi şair və mütəfəkkirin qəzəlini alman dilində səsləndirib.

Tələbə və şagirdlərin ifasında alman şairlərinin şeirləri, alman xalq mahnıları dinlənilib.

Tədbirdə 8 saylı orta məktəb şagirdləri tərəfindən səhnələşdirilən xalq nağılı “Qırmızı papaq” nümayiş olunub.

Tədbirin sonunda Alman dilinin leksikologiyası və üslubiyyatı kafedrasının müdiri Xuraman Əsgərova və Lətifə Qurbanova çıxışlarında tədbirin ərsəyə gəlməsində əməyi keçənlərə təşəkkür ediblər. Tədbir təşəkkürnamə və hədiyyələr təqdimatı ilə yekunlaşıb.

## “Atatürk deyir ki...” kitabı Türk dilindən Azərbaycan dilinə tərcümə olunub




**Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdullanın təşəbbüsü ilə Türk Dünyası Araşdırmaları Mərkəzinin müdiri Cəlal İbrahimli tərəfindən Akıl Aksanın müəllifi olduğu “Atatürk deyir ki...” adlı kitab Türk dilindən Azərbaycan dilinə tərcümə edilib.**

Cəlal İbrahimlinin tərcümə etdiyi kitab “Sim-sim” yayın evində nəşr olunub.

Kitabda Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün müxtəlif vaxtlarda etdiyi çıxışlar, İstiqlaliyyət Mübarizəsinə verdiyi töhfələr öz əksini tapıb.

Sözügedən kitabda Atatürkün azadlıq uğrunda verdiyi qurtuluş savaşından, milli hədəflərindən, dəyərli fikirlərindən bəhs olunarkən, bu fikirlərin Ulu Öndər Heydər Əliyevin “Bir millət - iki dövlət” ideyalarında birləşdiyi də qeyd olunub.

## ADU-nun tələbəsi beynəlxalq müsabiqənin qalibidir

**Azərbaycan Dillər Universitetinin (ADU) Tərcümə fakültəsinin Koreya dili- rus dili tərcümə ixtisası üzrə təhsil alan III kurs tələbəsi Elvira Ələkbərova İstanbul Universitetinin təşkil etdiyi “The 3rd Academic Olympiad of Korean Studies for Central Eurasian Students” adlı müsabiqədə “Koreya mifləri, nağılları və əfsanələrinin tərcüməsi və tədris məqsədilə istifadəsi” adlı məruzə ilə çıxış edib və II yerə layiq görülüb.**

Müsabiqədə Azərbaycanla yanaşı, Türkiyə, Qazaxıstan, Ukrayna, Sloveniya, Koreya universitetlərində təhsil alan tələbələr də iştirak ediblər. Tələbəmizi təbrik edir, uğurlarının davamlı olmasını arzu edirik.

## Tələbələrimiz “Ən yaxşı layihə” nominasiyasına layiq görülüb



Министерство науки и высшего образования Российской Федерации
Федеральное государственное образовательное учреждение высшего образования
«Московский государственный лингвистический университет»

Антитеррористический центр государств – участников Содружества Независимых Государств

ДИПЛОМ
ЛАУРЕАТА КОНКУРСА

награждается

Алиев Ниджат Парвизович, Шахализаде Марьям Джахидовна
(студенты Азербайджанского университета языков)

Номинация «Лучший видеоролик»

Четвертого Международного конкурса студенческих инициатив Федерального государственного бюджетного образовательного учреждения высшего образования «Московский государственный лингвистический университет» и Антитеррористического центра государств – участников Содружества Независимых Государств в сфере противодействия идеологии терроризма «Студенческий щит»

Ректор Московского государственного лингвистического университета, профессор И. А. Краева

Руководитель Антитеррористического центра государств – участников СНГ, генерал-полковник Е. С. Сысоев

Москва, 14 июня 2024 г.

**Azərbaycan Dillər Universitetinin (ADU) Tələbə Gənclər Təşkilatının (TGT) sədri Nicat Əliyev və tələbə Məryəm Şahəlizadənin birgə komanda işi 14 ölkə, 33 universitet və 300 tələbə arasından IV Beynəlxalq Müsabiqəsində “Ən yaxşı layihə” nominasiyasına layiq görülüb.**

ADU-nun tələbələri Müstəqil Dövlətlər Birliyinin ideoloji terrorizmə qarşı mübarizə üzrə “TƏLƏBƏ QALXANI - 2024” mövzusu ilə iştirak ediblər.

Sözügedən müsabiqə Müstəqil Dövlətlər Birliyinin (MDB) Terrorla Mübarizə Mərkəzi və Moskva Dövlət Linqvistika Universitetinin təşkilatçılığı ilə MDB və yaxın şərq ölkələrinin ali məktəb tələbələri arasında keçirilib.

Beynəlxalq müsabiqədə Azərbaycan, Rusiya, Çin, Ermənistan, Belarusiya, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan, Pakistan, Vyetnam, Fələstin və s. ölkələrdən tələbələr iştirak ediblər.

Bu münasibətlə ADU-nun rektoru, akademik Kamal Abdulla qalibləri təltif edib və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Azərbaycan Dillər Universitetinin kollektivi “Azərbaycan dilçiliyi” kafedrasının professoru Adil Babayevin həyat yoldaşı **Şəfiqə xanımın** vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin!

**Baş redaktor:**
**Sadiq ZAMAN**

*Redaksiya heyəti:*
Misgər Məmmədov
Nərgiz Qurbanlı
Nərgiz Zeynalova
Ayna Əliyeva
İnarə Abdullayeva
Məryəm Şıxalizadə
Ceyran Əliyeva
Mədinə Əhmədova

Ünvan: Az 1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134. Əlaqə telefonları: 440-29-31; 441-22-79

Qəzet «POLİQLOT»un redaksiyasında yığılıb, səhifələnib və «Azərbaycan Nəşriyyatı» MMC-də ofset üsulu ilə çap olunub.

Qeydiyyat № 720
Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Qəzet Ədliyyə Nazirliyində qeydə alınıb. Qeydiyyat №-si 1557

*Qiyməti 60 qəpik*

Tirajı: 1000
Sifariş: 2594